AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 22 (1367), 25 - 31 may 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

“2020-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununun (üç qrup və bir 1/4 oyunu) Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 sentyabr tarixli 2331 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “F.T.Cəfərovun Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktoru təyin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3783 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

“2020-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununun (üç qrup və bir 1/4 oyunu) Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 sentyabr tarixli 2331 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, H 9, maddə 1526; 2017, H 8, maddə 1521) 1-ci hissəsinin “Təşkilat Komitəsinin üzvləri” bölməsində aşağıdakı dəyişikliklər edilsin:

1. “Hacıbala Abutalıbov - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin üzvü”, “, Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini” və “və turizm” sözləri çıxarılsın.

2. “Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin üzvü” sözləri “Fərəh Əliyeva - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri” sözləri ilə, “təhsil naziri” sözləri “vergilər naziri” sözləri ilə, “Aydın Əliyev” sözləri “Səfər Mehdiyev” sözləri ilə, “Fərhad Hacıyev - Azərbaycan Respublikası Prezidentinin yanında Gənclər Fondunun icraçı direktoru” sözləri “Fərid Cəfərov - Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru” sözləri ilə əvəz edilsin.

3. “Elçin Quliyev - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi” sözlərindən sonra “Fuad Nağıyev - Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri” sözləri əlavə edilsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 may 2018-ci il.***

# Avro-2020: Bakıda keçiriləcək oyunların vaxtı açıqlanıb




UEFA 2020-ci ildə keçiriləcək Avropa çempionatının oyunlarının vaxtlarını açıqlayıb. Bakı Olimpiya Stadionunda Avro-2020-nin 4 oyunu təşkil olunacaq. Bunlardan 3-ü qrup mərhələsinin, 1-i isə dörddəbir final mərhələsinin oyunlarıdır.

UEFA-nın elan etdiyi təqvimə əsasən, Bakıda keçiriləcək “A” qrupunun 3 oyunu, müvafiq olaraq, iyunun 13-də, 17-də və 21-də olacaq. Dörddəbir final mərhələsinin Bakı Olimpiya Stadionundakı qarşılaşması isə iyulun 4-də keçiriləcək.

## Yeniyetmə gimnastımız bürünc medala sahib olub

Macarıstanın Kişkunfeledxaza şəhərində qadın idman gimnastikası üzrə beynəlxalq turnir keçirilib.

Ölkəmizi yeniyetmələr proqramında təmsil edən Samirə Qəhrəmanova öz həmyaşıdları arasında uğurlu çıxışı ilə fərlənib. Belə ki, gimnastımız dayaqlı tullanma proqramında 12.450 xal toplayaraq, turnirin bürünc mükafatına layiq görülüb.

Çoxnövçülükdə isə təmsilçimiz 21 iştirakçı arasında 6-cı yeri tutub.



# Olimpizm

## İsveçrə olimpiadaya 1 milyard dollar ayıracaq

İsveçrə hökuməti ölkə parlamentindən Olimpiada-2026-ya ev sahibliyi etmək uğrunda mübarizədə iştirak etmək üçün büdcədən 994 milyon frank (1 milyard dollar) ayırmağı xahiş edib. Olimpiada uğrunda Sion şəhəri mübarizə aparacaq.




Sion Beynəlxalq Olimpiya Komitəsinə namizədlik ərizəsini hələ təqdim etməyib. Bunun üçün əvvəlcə Uollis kantonu əhalisinin rəyini öyrənmək məqsədilə referendum keçirilməlidir.

Məlumat üçün bildirək ki, Siondan başqa Olimpiada-2026-ya Kalqari (Kanada), Qrats (Avstriya), Stokholm (İsveç), Ərzurum (Türkiyə), Sapporo (Yaponiya) və İtaliyanı Kortina -d’ Ampetso, Milan və Turin şəhərləri də iddialıdır.

2026-cı ildə keçiriləcək qış Olimpiya Oyunlarına ev sahibliyi edəcək şəhərin adı 2019-cu ilin sentyabr ayında açıqlanacaq. Növbəti, XXIV Qış Olimpiadası isə 2022-ci ildə Pekində keçiriləcək.

## Namizəd ciddi narahatdır

Rusiya Olimpiya Komitəsinin (ROK) prezidenti vəzifəsinə namizəd, üzgüçülük üzrə 4 qat Olimpiya çempionu Aleksandr Popov ölkəsinin üzləşdiyi dopinq problemi, eləcə də, Moskva Antidopinq Laboratoriyasından edilən oğurluq məsələsinə münasibət bildirib.

Aleksandr Popov laboratoriyadan bazanın oğurlanmasını Tokio-2020 Yay Olimpiadasından əvvəl Rusiya üçün problem yaradacağını deyib.

“Demək olar ki, bütün bazanı aparıblar. Bunun nələrə səbəb olacağını hamımız bilirik. Tokio-2020 Olimpiadasına 26 ay qalır. Bu məsələnin həlli üçün isə maksimum 12 ay gözləmək lazım gəlir. Bizim bir dəqiqə belə artıq vaxtımız yoxdur. Bir cəbhədə birləşməli, həmrəy olmalıyıq”, - deyə 4 qat Olimpiya çempionu bildirib.

Məlumat üçün bildirək ki, ROK prezidentliyinə ikinci namizəd qılıncoynatma üzrə dördqat Olimpiya çempionu Stanislav Pozdnyakovdur. Seçkilər mayın 29-da keçiriləcək.

ROK-un əvvəlki prezidenti Vladimir Mutko vəzifəsindən istefa verib.

## Futbol üzrə dünya çempionatına 20 gün qalır




## Anons

“Azərbaycan Xalq Cümhuriyyəti-100 il” mövzusunda dəyirmi masa Səh. 2

Qızıl Avropa Liqasında ikinci qələbə Səh. 3

## Kiyevdə final: “Ağlarla” “qırmızılar”ın rəngli mübarizəsi

Səh. 6




Hərb yolunun sonunda bizi qələbə gözləyir Səh. 4

Beynəlxalq turnirdə 630 taekvondoçu Səh. 4

Baş məşqçi yoldaşlıq oyunu ərəfəsində KİV-ləri bir araya toplayacaq Səh. 7

olimpnews.az - sizin saytınız




AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

## Məhəllə futbolu dünənin, bu günün və sabahın oyunudur

Səh. 5




# *İdman sahəsində 100 illiyi əhatə edən monoqrafiya işıq üzü görüb*

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru, pedaqogika üzrə fəlsəfə doktoru Dilqəm Quliyevin yeni kitabı işıq üzü görüb. "Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyində bədən tərbiyəsi və idmanın inkişafı" (1918-2018) monoqrafiyasından bəhs edən kitabda bir əsri əhatə edən dövrdə idman və bədən tərbiyəsində qazanılan uğurlardan bəhs olunub. Üç fəsildən ibarət monoqrafiyada ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin bədən tərbiyəsi və idmanın inkişafına göstərdikləri diqqət və qayğı öz əksini tapıb. Bundan başqa müstəqillik illərində, eləcə də ondan əvvəlki müddətdə Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafı, Xalq Cümhuriyyətinin 100 illiyi dövründə Olimpiya Oyunlarında, dünya və Avropa çempionları və mükafatçılarının uğurları ətraflı təhlil olunub. Monoqrafiyada Azərbaycanın görkəmli idmançıları, əməkdar bədən tərbiyəsi və idman xadimlərindən məlumat verilib, kütləvi bədən tərbiyəsi və idmanın, qadın idmanının inkişafından da bəhs olunub. Müəllif bu kitabında ölkəmizdə yaradılan idman infrastrukturundan, Olimpiya İdman komplekslərinin yaradılmasından bəhs edən mövzulara geniş yer ayırıb.

Qeyd edək ki, bu gün AzDBTİA-nın konfrans zalında kitabın təqdimat mərasimi keçiriləcək.

Stolüstü tennis üzrə liqa yarışları başa çatıb. Komanda xarakteri daşıyan yarışlar yüksək və standart liqa olmaqla keçirilib. Mərhələlər ilə keçirilən turlar yüksək liqada 6 oğlan və qız, standart liqada isə 12 oğlan və 7 qız komandası arasında təşkil olunub.

Qızların birinci liqa yarışlarında "İdeal" birinci, "Feniks" ikinci, "Pilot" isə üçüncü pillədə qərarlaşıb. Oğlanların mübarizəsində də "İdeal" komandası qızıl medal qazanıb. "Qələbə-1" yarışı ikinci, "Feniks" isə üçüncü pillədə başa vurub.

## Liqa yarışlarında qaliblər müəyyənləşdi

Qızlar arasında ikinci liqa yarışlarında "Feniks-2" komandası fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. "Buta" ikinci, "Atəşgah" isə üçüncü olub. Oğlanlar arasında "Çıraqqala" bütün rəqiblərinə qalib gəlib. "İdeal-2" gümüş, "Atilla" isə bürünc medal qazanıb.

Bağlanış mərasimində Azərbaycan Stolüstü Tennis Federasiyasının vitse-prezident Səbuhi Mehdizadə ölkəmizdə digər idman növləri ilə yanaşı, stolüstü tennisin də inkişaf etdiyini, bu idman növünə uşaq və yeniyetmələrin getdikcə artan marağını diqqətə çatdırıb. O, pilot layihə olan liqa yarışlarında Bakı, Sumqayıt, Şabrandan olan idmançıların iştirak etdiyini və gələcəkdə respublikanın bütün regionlarını əhatə edəcəyini bildirib.

Sonda qaliblərə medal və pul mükafatları təqdim edilib.

## Ağırlıqqaldıranların ölkə birinciliyi bu gün başlayır

Bu gün Şüvəlandakı Ağır Atletika Akademiyasında 15 və 17 yaşınadək yeniyetmə oğlan və qızlar arasında ağırlıqqaldırma üzrə Azərbaycan birinciliyi keçiriləcək.

Yarışda ölkənin bütün şəhər və rayonlarından idman cəmiyyətlərini, klubları, mərkəzləri, uşaq-gənclər idman məktəblərini təmsil edən 150-yə yaxın atlet iştirak edəcək.

Yarışın keçirilməsində məqsəd ölkənin ən güclü yeniyetmə atletlərinin müəyyən edilməsi, ağırlıqqaldırma idman növünün təbliğ və inkişaf etdirilməsi, dostluq əlaqələrinin möhkəmləndirilməsi, idmançıların ustalıq səviyyəsinin artırılması, həmçinin qarşıdakı beynəlxalq yarışlara hazırlıqdır.




## "Zenit"in yetirmələri Ukraynada 8 medala sahib olublar

Mayın 16-19-da Ukraynanın Krivoy-Roq şəhərində boks üzrə beynəlxalq turnir keçirilib.

Turnirdə "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin təmsilçiləri də qüvvələrini sınayıblar. Yarışda məşqçi Təvəkkül Məmmədovun rəhbərliyi altında 10 idmançı ilə təmsil olunan "Zenit" İC-nin təmsilçiləri vətənə 8 (2 qızıl, 6 gümüş) medalla qayıdıblar.

Cəmiyyətin iki yetirməsi - Eldar Əsədli (72 kq) və Bəxtiyar Hənifəyev (56 kq) fəxri kürsünün ən yüksək pilləsində qərar tutub. Gümüş medalları isə komandaya Orxan Tarıverdiyev (46 kq), Kərəm Əmrahov (50 kq), Murad Eminli (57 kq), Cəlal Əliyev (60 kq), Elməddin İsmayılov (64 kq) və Mirağa Əliyev (81 kq) qazandırıb.



## Yeniyetmə həndbolçularımız Bosniya və Herseqovinada yarışacaqlar

Mayın 29-dan iyunun 3-dək Bosniya və Herseqovinanın Tuzla şəhərində 2000-2001-ci illər təvəllüdlü həndbolçu qızlar arasında "Challenge Trophy" yarışı keçiriləcək. Avropa ölkələri arasında keçirilən çempionatda 8 dövləti təmsil edən həndbolçular iki qrupda yarışacaqlar.

Azərbaycan təmsilçiləri Böyük Britaniya, Bosniya və Herseqovina və Lüksemburq milli komandaları ilə birlikdə "B" qrupunda mübarizə aparacaq. Estoniya, Moldova, Belçika və Kipr yığmaları isə "A" qrupunda yer alıblar.

Qrup oyunları mayın 29-dan 31-dək keçiriləcək. İyunun 2-də yarımfinal, bir gün sonra isə final matçları oynanılacaq.

Xatırladaq ki, 2002-ci ildə Bakıda qadınlar arasında keçirilən həmin yarışda Azərbaycan həndbolçuları qızıl medallara sahib olublar.

# "Azərbaycan Xalq Cümhuriyyəti-100 il" mövzusunda dəyirmi masa

Mayın 23-də Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzinin təşkilatçılığı ilə "Azərbaycan Xalq Cümhuriyyəti-100 il" mövzusunda dəyirmi masa keçirilib.




Tədbirdə mərkəzin direktoru Qədəmşah Sadıxov, millət vəkili, tarix elmlər doktoru, professor Fəzail İbrahimli, Dövlət İdarəçilik Akademiyasının tarix kafedrasının müdiri, fəlsəfə doktoru dosent Firdovsiyyə Əhmədova, AMEA-nın Qafqazşünaslıq İnstitutunun əməkdaşı, tarix elmlər doktoru Qasım Hacıyev, AMEA-nın Tarix İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Vaqif Abışov, qeyri-hökumət təşkilatları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Gənclər və İdman Nazirliyi Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzinin direktoru Qədəmşah Sadıxov tədbiri giriş sözü ilə açaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili"elan olunduğunu qeyd edib. O, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibəti ilə ölkəmizdə müxtəlif tədbirlərin təşkil olunduğunu bildirib.

Millət vəkili Fəzail İbrahimli "Azərbaycan Xalq Cümhuriyyəti - şərəf və ləyaqət tariximizdir" mövzusunda məruzə ilə çıxış edib. O, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının böyük bir tarixi hadisə olduğunu, azərbaycançılıq məfkurəsinin möhkəmlənməsinə, həmçinin gələcək nəsillərin müstəqil dövlətçilik ideyaları əsasında tərbiyə olunmasına xidmət göstərdiyini vurğulayıb.

Dövlət İdarəçilik Akademiyasının tarix kafedrasının müdiri Firdovsiyyə Əhmədova "Azərbaycan dövlətçiliyinin tarixində Xalq Cümhuriyyətinin rolu" mövzusunda çıxış edib. O, 1918-ci il mayın 28-də müsəlman Şərqində yaradılan və xalqımızın dövlətçilik tarixində misilsiz rolu olan ilk demokratik, parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyəti barədə məlumat verib. Firdovsiyyə Əhmədova Cümhuriyyətin irqi, milli, dini və sinfi bərabərsizliyi ləğv edərək, bütün vətəndaşların hüquq bərabərliyini təmin etdiyini bildirib: "Cümhuriyyətimiz dünyaya göstərdi ki, biz keçmişlə yaşamırıq, gələcəklə yaşayırıq, humanist dövlətik. Sovet dövründə Azərbaycan Xalq Cümhuriyyətinin adı belə çəkilmirdi. İndi isə həmin dövrün həqiqi tarixi dərindən öyrənilir və təqdim olunur".

AMEA-nın Qafqazşünasılq İnstitutunun əməkdaşı Qasım Hacıyev "Azərbaycan Xalq Cümhuriyyəti və milli mədəni intibah" mövzusunda məruzə edib. Qasım Hacıyev AXC-nin 100 illiyinin ölkəmizdə qeyd olunması azərbaycançılıq məfkurəsinin möhkəmlənməsinə və zənginləşməsinə, həmçinin gələcək nəsillərin müstəqil dövlətçilik ideyaları əsasında tərbiyə olunmasına xidmət etdiyini vurğulayıb. O, bildirib ki, cəmi 23 ay yaşamış Cümhuriyyət milli dövlətçilik tariximizdə silinməz izlər qoyub, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə ölkəmizin gələcək müstəqilliyi üçün etibarlı zəmin yaradıb.

AMEA-nın Tarix İnstitutunun əməkdaşı Vaqif Abışov "Azərbaycan Xalq Cümhuriyyəti - şərqdə ilk demokratik respublika" mövzusunda məruzə ilə çıxış edib. O, Azərbaycan Xalq Cümhuriyyətinin dünya tarixinin ən demokratik dövlət qurumlarından biri olduğunu söyləyib. Tarixin ən çətin, ən mürəkkəb dövründə yaranan Azərbaycan Xalq Cümhuriyyətinin demokratik ənənələrə malik olduğunu bildirən Vaqif Abışov Cümhuriyyətin yaranmasının tarixi bir hadisə olduğunu qeyd edib. O, vurğulayıb ki, ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə, ölkəmizlə bağlı həqiqətlərin üzə çıxarılmasına və dünyaya çatdırılmasına hər zaman böyük diqqət yetirib. Prezident İlham Əliyev tərəfindən 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsini xalqımızın həyatında mühüm hadisə kimi dəyərləndirən Vaqif Abışov bunu müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinə verilən tarixi qiymət kimi dəyərləndirib.

***Azər Əlizadə***

# "Neftçi idman klubu" İB

### Güləş

"Neftçi İdman Klubu"nun yetirməsi Şahanə Nəzərova (43 kq) Makedoniyanın Skopye şəhərində yeniyetmə güləşçilər arasında keçirilən Avropa çempionatında gümüş medala sahib olub. İdmançımız Bolqarıstan, Fransa və Rusiya təmsilçiləri üzərində qələbə qazanaraq həm finala yüksəlib, həm də Argentinanın Buenos-Ayres şəhərində keçiriləcək Yeniyetmələrin III Olimpiya Oyunlarına lisenziyanı təmin edib. Gərgin mübarizə şəraitində keçən final görüşündə 2-2 bərabərlik qeydə alınsa da, texniki üstünlük rəqibdə olub və güləşçimiz ikinci yerlə kifayətlənməli olub.

### Sambo

Yunanıstanın paytaxtı Afinada keçirilən sambo üzrə Avropa çempionatı başa çatıb.

2019-cu ildə Minskdə təşkil olunacaq II Avropa Oyunlarına lisenziya verən yarışda "Neftçi İdman Klubu"nun üç samboçusu medala layiq görülüb. Azərbaycan millisinin heyətində təmsil olunan idmançılarımızdan Mehman Xəlilov (57 kq), Cavidan Qarayev(62 kq) və Emil Həsənov (68 kq) əzmlə mübarizə apararaq Avropa çempionatının bürünc medalına sahib olublar. Bununla bərabər, hər üç samboçumuz II Avropa Oyunlarına lisenziya əldə edib.

### Qılıncoynatma

Gürcüstanın paytaxtı Tbilisidə 2003-2005 və 2006-2008-ci illər təvəllüdlü qılıncoynadanlar arasında beynəlxalq turnir keçirilib.

Sablya, şpaqa və rapira növləri üzrə təşkil olunan yarışda ölkəmizi 17 idmançı təmsil edib. "Neftçi İdman Klubu"nun yığmamızın heyətində təmsil olunan qılıncoynadanlarından ikisi turnirin mükafatçıları arasında yer alıb. İdmançılarımızdan Fidan Quliyeva 2006-2008-ci illər təvəllüdlü sablyaçıların yarışında qızıl medala layiq görülüb. Murad Muradov isə həmin yaş kateqoriyasında bürünc medala sahib olub.

*  *  *

Azərbaycan Texniki Universitetinin idman zalında qılıncoynatma üzrə respublika çempionatı keçirilib. Yarışda 90 idmançı bacarığını nümayiş etdirib.

Klubumuzun qılıncoynadanları çempionatda iki medal qazanıblar. Sablya yarışlarında Sevil Bünyatova qadınlar arasında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Kişilər arasında keçirilən rapira yarışında isə Cavanşir Ağakişiyev eyni uğura imza ataraq Azərbaycan çempionu olub.

### Atletika

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda keçirilən atletika üzrə paytaxt birinciliyinə yekun vurulub. Yarışda 2001-2002-ci illər təvəllüdlü idmançılar bacarıqlarını nümayiş etdiriblər.

"Neftçi İdman Klubu"nun atletləri Bakı birinciliyinin 4 medalını qazanıblar. Nizəatma yarışında Könül Əliyeva 18 metr nəticə ilə qızıl medala sahib olub. Aysun Əhmədova (13,98 metr) 2-ci, Rəna Nəsirova (11,12 metr) isə 3-cü yeri tutub.

Nüvəitələmə idman növündə Könül Əliyeva 8,30 metr nəticə göstərərək birinciliyin gümüş medalına layiq görülüb.



### Futbol

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə 2007-ci il təvəllüdlü futbolçulardan ibarət komandalar arasında keçirilən 16-cı "Sabahın ulduzları" paytaxt çempionatı başa çatıb.

Bakı Futbol Federasiyasının təşkilatçılığı ilə keçirilən turnirdə "Neftçi İdman Klubu"nun komandası böyük əzmkarlıq nümayiş etdirərək çempion adını qazanıb.

Tural Kərimovun yetirmələrindən Məhəmməd Əliyev "turnirin bombardiri", Əli Əliyev "ən yaxşı yarımmüdafiəçi", İlqar Məmmədov isə "ən yaxşı müdafiəçi" nominasiyasının qalibi olub.

Bu gün klubun inzibati binasının akt zalında mükafatlar komanda üzvlərinə təqdim olunub.

***"Neftçi İdman Klubu" İctimai Birliyinin mətbuat xidməti***

*Voleybol*

# Qızıl Avropa Liqasında ikinci qələbə

Mayın 23-də qadın voleybolçulardan ibarət Azərbaycan milli komandası Qızıl Avropa Liqasındakı ikinci görüşündə Portuqaliya yığması ilə qarşılaşıb.

Milli komandamız Azərbaycan Voleybol Mərkəzində Portuqaliya yığmasını 3:1 hesabı ilə məğlub edib.

Türkiyəli baş hakim Saadettin Denerin idarə etdiyi görüşə daha fəal başlayan portuqaliyalı voleybolçular ilk seti öz xeyirlərinə başa vurublar - 26:24. Lakin ilk görüşdə olduğu kimi, bu oyunda da yüksək əzmkarlıq nümayiş etdirən Azərbaycan millisi ardıcıl üç setdə müvafiq olaraq 25:17, 25:14 və 25:17 hesabı ilə qalib gəlib. Beləliklə, görüş voleybolçu qızlarımızın 3:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Qızıl Avropa Liqasında milli komandalar üç qrupda mübarizə aparırlar. "A" qrupunda yer alan Azərbaycan yığmasının rəqibləri Ukrayna, Portuqaliya və Bolqarıstan seçmələridir. Komandamız ilk turda Ukrayna yığmasını 3:1 hesabı ilə məğlub edib.

Millimiz növbəti oyununu mayın 26-da səfərdə Bolqarıstana qarşı keçirəcək.

Qızıl Avropa Liqasının final mərhələsi Macarıstanda keçiriləcək.

Xatırladaq ki, Azərbaycan millisi 2016-cı ildə Qızıl Avropa Liqasının çempionu olub.



*Triatlon*




## Yığmamızın lideri dünya reytinqindəki mövqeyini yaxşılaşdırıb

Triatlon üzrə Azərbaycan yığmasının lideri Rostislav Pevtsov dünya reytinqindəki mövqeyini yaxşılaşdırıb.

Yenilənmiş təsnifatda iki bənd yüksələn idmançı hazırda 20-ci yerdədir. R.Pevtsovun aktivində 3476,32 xal var. Qeyd edək ki, o, bu il Çenqduda (ÇXR) Dünya Kuboku yarışlarının qızıl medalını qazanıb, habelə Qran-Kanariyada Avropa Kubokunun və Şarm əş-Şeyxdə Afrika açıq çempionatının qalibi olub.

İspaniyalı Mario Mola reytinqdəki liderliyini qoruyub saxlayır, onun ardınca britaniyalı Conatan Braunli və norveçli Kristian Blümmenfeld gəlirlər.

*Basketbol*

## Məktəblilər basketbol yarışlarında

Nərimanov rayonundakı 193 nömrəli tam orta məktəbin idman zalında Bakı məktəbliləri arasında basketbol üzrə turnirin final oyunları keçirilib. Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin birgə təşkil etdiyi yarış 2003-2005-ci illər təvəllüdlü qızlar arasında keçirilib.

Yarışda Nəsimi rayonunu təmsil edən Bakı Türk Anadolu Liseyinin komandası birinci olub. Yasamal rayonu 158 nömrəli tam orta məktəbin şagirdləri yarışı ikinci, Nizami rayonu 145 nömrəli tam orta məktəbin komandası isə üçüncü pillədə başa vurublar.

Yarışda ilk üç yeri tutan komandaların üzvləri müvafiq dərəcəli diplom və medallarla təltif olunublar.

*Xəbərlər*

### Qrosmeysterimiz ən güclü zəka sahiblərinə qarşı

Mayın 28-də Norveçin Stefanger şəhərində şahmat üzrə "Altibox Norveç Chess" superturniri keçiriləcək. İyunun 8-dək davam edəcək yarışda Azərbaycanı Şəhriyar Məmmədyarov təmsil edəcək.

Turnirdə qrossmeysterimizlə yanaşı, Maqnus Karlsen (Norveç), Fabiano Karuana, Hikaru Nakamura, Uesli So (hər ikisi ABŞ), Levon Aronyan (Ermənistan), Dinq Liren (Çin), Maksim Vaşye-Laqrav (Fransa), Sergey Karyakin (Rusiya) və Vişvanatan Anand (Hindistan) mübarizə aparacaq.

Turnirə iyunun 8-də yekun vurulacaq.

### Üzgüçülərimiz açıq İtaliya çempionatında iştirak edəcəklər

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin üzgüçülük idman növü üzrə milli komandası İtaliyanın Lignano Sabbiadoro şəhərində keçiriləcək açıq ölkə çempionatında iştirak edəcək.

Millimiz 4 nəfərlik heyətlə İtaliyaya yola düşüb.

Çempionat avqustun 9-da İrlandiyanın paytaxtı Dublində keçiriləcək Avropa çempionatına lisenziya verəcək.

*Cüdo*

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə 14-16 yaşlı idmançılar arasında cüdo idman növü üzrə "Təhsil" Respublika İdman Mərkəzinin respublika birinciliyi keçirilib.

Sumqayıt Olimpiya İdman Kompleksində keçirilən birincilikdə 9 çəki dərəcəsi üzrə 200-dək idmançı mübarizə aparıb.

Yarışın açılış mərasimində Sumqayıt şəhər 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvləri konsert proqramları ilə çıxış ediblər.

## Respublika birinciliyinin qalibləri mükafatlandırılıblar

Yarışın nəticələrinə əsasən, birinci yeri 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin komandası tutub. Sumqayıt şəhər 2 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin komandası ikinci, "Təhsil" Respublika İdman Mərkəzinin Sumqayıt şəhər 1 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin komandası isə üçüncü yerə sahib çıxıb.

Qaliblər kubok və diplomla təltif olunublar.

Yarışın keçirilməsində əsas məqsəd milli



dövlətçilik ənənələri barədə şagirdləri məlumatlandırmaq, perspektivli idmançıları aşkar etmək, müvafiq yaş qrupları üzrə yığma komandaları formalaşdırmaq və idmançıların oyun təcrübəsini artırmaqdan ibarət olub.

*Velosiped*

## DÇ-yə dəstək yarışları başa çatmaq üzrədir

Velosiped idman növünün məktəblilər arasında təbliğinə həsr olunmuş kütləvi idman tədbirlərinin rayondaxili mərhələsi bölgələrdə davam etdirilir. Artıq Mingəçevir şəhərində yarışa yekun vurulub.

Mingəçevir Şəhər Stadionunda 20 məktəbin komandasının iştirakı ilə keçirilən yarışın nəticəsinə əsasən 1-ci yerə 20 saylı, 2-ci yerə 11 saylı və 3-cü yerə 4 saylı orta məktəbin komandası layiq görülüb. Qaliblər kubok və diplomlarla təltif ediliblər.

Kütləvi idman tədbirlərinin keçirilməsində əsas məqsəd velosiped idman növünü məktəblilər arasında təbliğ etmək, onların idmana marağını artırmaq, məktəbliləri sağlam həyat tərzinə cəlb etməkdir. Yarışlar Bakı, Gəncə, Sumqayıt və Mingəçevir şəhərləri, Abşeron, İsmayıllı və Zaqatala rayonları əhatə olunmaqla Azərbaycan Velosiped İdmanı Federasiyasının və Respublika Olimpiya Velosiped Məktəbinin dəstəyi, "Təhsil" Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə keçirilir.

Kütləvi idman tədbirinin final mərhələsi iyunun 2-də Veloparkda olacaq. Yarışlar Təhsil Nazirliyinin müvafiq əmri ilə 2018-ci ilin 5-9 iyun tarixlərində Bakı şəhərində velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatına dəstək məqsədilə təşkil olunub.




*Xəbərlər*

## Karateçilərimiz açıq Asiya kuboku yarışlarında uğur qazanıblar

Rusiyanın Barnaul şəhərində IV Əlbəyaxa Döyüş Olimpiadası və kosiki karate-do üzrə açıq Asiya kuboku yarışları keçirilib.

15 növ üzrə keçirilən olimpiadada kosiki karate yarışlarında 800 idmançı qalib adı uğrunda mübarizə aparıb. Yarışda ölkəmizi 5 idmançı təmsil edib. Bunkay kumite üzrə komanda yarışlarında Azərbaycan millisi bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.



Kişilərin kumite yarışlarında 18 yaşdan yuxarı karateçilərin mübarizəsində Renat Kuper gümüş medal qazanıb. 12-13 yaşlı qızların mübarizəsində Sevinc Mövsümzadə mötəbər yarışı birinci pillədə başa vurub.

Kata yarışlarında 12-13 yaşlı karateçilərin mübarizəsində Sevinc Mövsümzadə bir daha fərqlənərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 14-15 yaşlı idmançıların mübarizəsində isə Alina Bərziqyarova ikinci olub.

Kişilərin kata yarışlarında Nazim Mövsümzadə qızıl, Ruslan Bərziqyar gümüş, Renat Kuper isə "kiçik bürünc" medala sahib olublar.

Qeyd edək ki, olimpiadada ümumilikdə 3500-dən artıq idmançı, kosiki karate-do üzrə açıq Asiya kuboku yarışlarında isə 10 ölkədən atletlər birincilik uğrunda mübarizə aparıblar.

## Qitə çempionatında beş medal sevinci

Kyokşin karate üzrə Azərbaycan yığma komandası Polşanın Vroslav şəhərinə növbəti Avropa çempionatında iştirak edib.

28 ölkədən 400-dən çox idmançının mübarizə apardığı mötəbər yarışda komandamız 15 nəfərlik heyətlə təmsil olunub.

Gənc karateçilərimizdən Alikismət Həsənov (60 kq), Seyfəddin Namazov (70 kq) və Solmaz Zeynallı (60 kq) yarışın bürünc medalını qazanıblar. Böyüklərin yarışında isə Emin İsmayıllı (65 kq) və Səlahət Həsənov (85 kq) yalnız finalda məğlub olaraq gümüş medala layiq görülüblər.

## Qaradəniz və Xəzəryanı ölkələrinin idmançıları Bakıda bir araya gələcəklər

İyunun 22-24-də Bakıda Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovun xatirəsinə həsr olunan Qaradəniz və Xəzəryanı ölkələrinin idmançıları arasında karatenin WKF versiyası üzrə çempionat keçiriləcək. "Sərhədçi" Olimpiya İdman Mərkəzində təşkil olunacaq yarışda 10-dək ölkədən karateçilərin iştirakı gözlənilir. Üç gün ərzində keçiriləcək xatirə turnirində müxtəlif çəki dərəcələrində altı yaşlı uşaqlar, böyüklər və veteran idmançılar çıxış edəcəklər.

Xatırladaq ki, Albert Aqarunovun anım günündə döyüş yoldaşları Milli Qəhrəmanın Şəhidlər xiyabanındakı məzarını ziyarət edib, onunla bağlı xatirələrini bölüşüblər.

## Komandamız Sloveniya turnirində çıxışını başa vurdu

Sloveniyanın Medvode şəhərində "FZ Forza Slovenia International 2018" beynəlxalq turniri keçirilib. Yarışda iştirak edən badmintonçularımız Edi Reski Dviçayo və Ezmi Qovimuramadhoni turnirdə çıxışlarını başa vurublar. Kişilərin şəxsi mübarizəsində turnirin əsas mərhələsinə vəsiqə qazanan Edi Reski Dviçayo 1/16 finalda ukraynalı Dmitro Zavadskiyə 0:2 (19-21, 14-21) hesabı ilə məğlub olub. Qoşa yarışda təmsilçilərimizin rəqibi ingiltərəli badmintonçular olub. Edi Reski Dviçayo - Ezmi Qovimuramadhoni cütü Devid Cons - Conni Toryussen cütlüyünə 1:2 (17-21,21-15,13-21) hesabı ilə uduzub.

# Hərb yolunun sonunda bizi qələbə gözləyir

*Uzun illər əvvəl bir jurnalistin müharibə haqqında xatirələrini oxumuşdum. Xanım jurnalist yazırdı: "Əfqanıstana ezam olunmuşdum. Bir qəsəbədə uçub dağılmış daxmanın qarşısında çomağına dirənib oturmuş qocaya yaxınlaşdım. Azacıq fars dilini bildiyimdən onunla ordan-burdan söhbət etdik. Soruşdum ki, müharibə sənin üçün nə deməkdir? Cavab verdi ki, sülh zamanı oğullar atalarını dəfn edirlər, müharibədə isə atalar oğullarını. Cavab məni qane etmədi və qayıtdım ki, elə bu qədərmi? Yaşlı adam çuxura düşmüş gözlərini mənə zilləyərək dedi: "Sənə daha nə lazımdır?" Müharibənin nə demək olduğunu sanki həmin o an anladım. Son nəfəs kimiydi adam.Çomaq azca tərpənsəydi, yıxılacaqdı. Burada niyə oturduğunu soruşanda "Məndən başqa qət edilməmiş bir nəvəm, bir də inəyim qalıb. Nəvəmi inəyin dalınca göndərmişəm, tapıb gətirsə, sağıb südünü içəcəyik", - dedi.*

"Sülh zamanı oğullar atalarını, müharibədə isə atalar oğullarını dəfn edirlər". Bu ifadə müharibənin acı tablosunu məharətlə cızır. Bu anda Aprel döyüşlərində şəhid olan Qabil Orucəliyevin anasını xatırladım. Ana kədərinə, acısına baxmayaraq dim-dik ayaq üstə idi. O, oğlunun tabutunu girərək taa yolun sonuna qədər çiynində apardı. Kaş ki, elə bir qüdrətim olaydı ki, yer üzündəki bütün tankları, topları, silah-sursatları əridib, onlardan saz, tar, kamança, tütək düzəldə biləydim...

Azərbaycan tarixinə və taleyinə müharibə yazılan ölkələrdən biridir. Hər səhifəmiz şühəda yazır, hər qarış torpağı sıxsan, qan axır. Hansından başlayasan, hansından yazasan?! 30 ildir ki, Azərbaycan ataları-anaları oğul və qızlarını çiyinlərində məzarlığa daşıyır. Yüzillər əvvəl də belə idi, indi də belədir. Biz müharibə istəmirik, analarımız isə heç istəmirlər. Amma söhbət Vətəndən gedirsə, gerisi təfərrüatdır.

## XX yüzilliyin əvvəli və sonu...

XX yüzilliyin əvvəli, yəni 1918-ci il may ayının 14-də Batumidə Osmanlı Türkiyəsi ilə danışıqlar başlandı. Bu danışıqlarda ermənilər və gürcülərlə yanaşı, Azərbaycan Milli Şurasının üzvləri M.Ə.Rəsulzadə və xarici işlər naziri vəzifəsini icra edən Məmmədhəsən Hacınski də iştirak edirdilər. Azərbaycan öz dövlət müstəqilliyini elan edəndən sonra Milli Şuranın mayın 29-da keçiriləcək üçüncü iclasında gündəlikdə duran məsələlərdən biri də, İrəvan şəhərinin ermənilərə güzəştə gedilməsi idi. Həmin il may ayının 14-də danışıqlar zamanı ermənilər



şifahi olaraq İrəvanın güzəştə gedilməsi barədə qarşı tərəfdən razılıq alırlar. Amma Azərbaycan tərəfi onlara şərt qoyur ki, müharibəni dayandıracaqlar, Qarabağ, Naxçıvan və Zəngəzurdan imtina edəcəklər, gələcəkdə mehriban qonşuluq şəraitində yaşayacaqlar. Həmin toplantıda bu şərtlər çərçivəsində İrəvan güzəştlə ermənilərə verilir və bu barədə sənəd də imzalanır. Fətəli Xan Xoyski bunu tarixi zərurət adlandırsa da, əslində hər hansı tarixi şərait ölkə rəhbərlərini belə bir addım atmağa sövq etməməli idi. Çünki torpaq rəhbərlərin deyil, millətindir, xalqındır.

1918-ci ilə qədər həmin ərazi 9,7 min kv km idi. Bolşeviklər 1921-ilin iyunundan 1929-cu ilin fevralın 28-nə qədər Azərbaycanın daha 29,8 min kv km ərazisini ermənilərə peşkəş verdilər. Cinayətin bir tərəfi bu idisə, digər tərəfi də, Naxçıvanın Azərbaycanın əsas ərazisindən ayrılması idi. Həmin güzəştin ən ağır nəticələrindən biri də budur. BMT-nin 1948-ci ilin dekabrında qəbul etdiyi 260 nömrəli Konvensiyasında deportasiya, etnik təmizləmə və soyqırımı insanlıq üçün ən ağır cinayət hesab edilir. BMT-nin Təhlükəsizlik Şurasına daxil olan ölkələr tərəfindən qəbul edilən həmin Konvensiya indi də qüvvədədir. Halbuki biz hələ də dünyanın ikili standartlar siyasətindən əziyyət çəkirik.



Azərbaycan xalqının iradəsi yalnız Konstitusiyaya əsaslanaraq həyata keçirilir. Bu maddəni əsas tutaraq 1918-ci il AXC-nin varisi kimi həmin güzəşt qərarının qüvvədən düşdüyünü elan edib, beynəlxalq təşkilatlar səviyyəsində bağışlanılan torpaqların geriyə qaytarılması tələb olunmalıdır.

İrəvanın ermənilərə güzəştə gedilməsindən bizi tam 100 il zaman kəsiyi ayırır. Bu müddət ərzində axan qanlar heç durmadı, durmazdı da. Vətəni, yurdu, düşməndə olan millətin övladları heç rahatlıq tapmadılar, indi də tapmırlar...

## Xalqın xilaskarı

Müstəqillik dövrü Azərbaycan xalqının tarixində şanlı səhifələrdən olsa da, həmin dövr eyni zamanda, Ermənistanın təcavüzü nəticəsində tökülən qanlarla, qırğınlarla, faciələrlə ən ağrılı tariximiz kimi yaddaşlarda həkk olundu. 1993-cü il iyunun 15-də Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə gəlməsi ölkənin daxili və xarici siyasətində əsaslı dönüşə səbəb oldu. Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edən ümummilli lider Heydər Əliyev tezliklə ölkədəki ağır vəziyyəti nəzarətə götürdü, ordu quruculuğu istiqamətində əhəmiyyətli addımlar atdı.

Rusiyanın hərbi yardımı ilə düşmənin təcavüzünün genişlənməsi nəticəsində Dağlıq Qarabağ bölgəsi və ərtafyanı 7 inzibati rayon artıq işğal edilmişdi. Belə çətin məqamda Azərbaycan xalqı öz xilaskarına böyük inam bəsləyərək onun rəhbərliyi altında erməni faşizminə qarşı inamla mübarizəyə qalxdı. 1993-cü ilin noyabr-dekabr və 1994-cü ilin yanvarında Azərbaycan Silahlı Qüvvələri erməni işğalçılarına ağır hərbi zərbələr vuraraq bir sıra işğal olunmuş əraziləri azad etdi. 1994-cü ilin yazında bir-birinin ardınca ağır məğlubiyyətlərə düçar olan qondarma Ermənistan atəşkəs əldə etmək üçün Azərbaycan rəhbərliyinə müraciət etdi. Ölkədə və o cümlədən, cəbhədə yaranmış vəziyyəti dərindən analiz edən ümumilli lider Heydər Əliyev 1994-cü il may ayının 12-də (Bişkek) atəşkəsin imzalanmasına razılıq verdi. Atəşkəsin imzalanması Azərbaycan Respublikasının həm hərbi, həm də diplomatik uğuru idi. Atəşkəs rejimindən səmərəli istifadə edən Azərbaycan çox qısa bir müddət ərzində istər ölkə daxilində, eləcə də, beynəlxalq aləmdə öz mövqelərini xeyli möhkəmlətdi. Heydər Əliyevin 1993-cü ilin sonu-1994-cü ilin əvvəlində Fransa, İngiltərə, Türkiyə və Çinə rəsmi dövlət səfərləri və 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın daxili və xarici siyasətində ən mühüm hadisələr kimi qiymətləndirilir. Azərbaycanın XX əsrin ikinci yarısını əhatə edən tarixinə öz möhürünü vurmuş, ölkəmizə üst-üstə 23 il rəhbərlik etmiş Heydər Əliyevin dahi şəxsiyyət, müdrik siyasətçi kimi xalqımızın tarixində rolu çox böyükdür.

## Zəfər, "zəfər mənimdir" deyə bilənindir

Canına yağı dadanmış xalqımız əsrlərdir zorla cəlb edildiyi bəladan qurtula bilmir. Bu xalq əsrlərdir axşamlarının harda düşdüyünü, sabahlarının nə zaman açıldığını unudub. Hər bir xalq kimi biz də zəfər qazanmağı çox sevirik. Çünki zəfərə, qələbəyə təşnədir səngərlərdə oğullarını qurban verənlər...

Zəfər iradə və güclü mənəviyyatdan ibarətdir. Müharibə bütün arzuolunmaz tərəfləri ilə bərabər həm də, bir millətin genetik xarakterinin, bütünlüyünün, mənəviyyatının nümayişidir. Çünki insanlar savaşa tək deyil, toplum halında girir. Yurd, vətən, torpaq, tarix, milli mədəniyyət, sosial quruluş, hətta iqlim belə etnosu və milləti müəyyənləşdirən amillərdir. Bunların bütövləşməsində yurd anlayışı mahiyyətcə mənəviləşir və üzərində yaşayan xalqın milli psixologiyasını, əxlaqını və mədəniyyətini yaradır. Mədəniyyəti coğrafi tutarından çox-çox böyük olan Azərbaycan xalqının savaş mədəniyyəti də özünəməxsusdur, tolerantdır.

Bütün zamanlarda müharibələr qənimətə, mənfəətə, ərazi işğalına və dinə görə baş verib. Neft və başqa sərvətlər, isti və soyuq dənizlər, ərazilər və sair. Təəssüf ki, müharibənin qorxunc üzü olan terrorizm regional deyil, qlobal miqyasda xüsusi fəaliyyət növünə, kapital qoyuluşuna malik olan və külli miqdarda gəlir gətirən biznesə çevrilib. İşğal altındakı Azərbaycan əraziləri də beynəlxalq terrorizmin qurbanıdır. 1988-ci ildən bugünə qədər Ermənistan beynəlxalq qanun və müharibə şərtlərini pozaraq işğal etdiyi ərazilərimizdə terrorizmin maliyyələşməsinə yönələn narkotik maddələr istehsalı ilə məşğul olur. Düşmən təbii sərvətlərimizi sataraq özünün bisnes şəbəkəsini və silah bazasını yaratmışdır. Lakin Azərbaycan xalqı bu 30 ildə kimsənin torpağına, gəlirinə tamah salmadan, sadəcə, ona aid olan vətənini, yurdunu, uğrunda şəhid verdiyi torpağını düşməndən azad etmək, ərazilərini terror yuvasından, narkotik ticarəti paliqonundan, tarixini, mədəniyyətini barbarcasına məhvedilmədən qurtarmaq istəyir. Bu haqq uğrunda nə "günəşlərimiz" söndü və sönməkdə davam edir...

Fikrimcə, üstün əxlaqın formalaşmasında, yurd sevdasının içimizdə körüklənməsində milli qəhrəmanımız Mübariz İbrahimovun cihadı və onun nəşini xilas etmək üçün müqəddəs yola çıxan Fərid Əhmədovun qəhrəmanlığı böyük məktəb olmuşdur. Gəncliyimiz bu qəhrəmanlığı bədii əsərlərdən oxuyub, kinolardan öyrənmədi, həyatında gördü, müasiri oldu. Mübarizin cihadı xalqımızın, xüsusən, gəncliyimizin közərən ümidlərini alovlandırdı, özünəgüvəni, mənəviyyatını, korşalmış ruhunu toxum kimi təzədən cücərtdi, həm də zəfərə inamsızlıq yarasını sarıdı, sağaltdı. Mübariz millətinə mesaj verdi: "Zəfər, zəfər mənimdir" deyə bilənindir. Mən bu torpağa zəfərə inamın toxumunu əkdim, qanımla suvardım, onu cücərdin, böyüdün!". Və biz Aprel döyüşlərində Raquf Orucovun, Qabil Orucəliyevin, Murad Mirzəyevin, Samit İmanovun və yüzə yaxın övladlarımızın şəhid düşdüyü torpaqda düşmənə yenildiyini qəbul etdirib, "Zəfər bizimdir" deyə bildik.

Biz uzun zamandır zəfər sevinci yaşamamışdıq, zəfərə, qələbəyə tamarzı idik. Aprel ayında Azərbaycan oğulları qanlarıyla bu qüruru, güvəni bizə yaşatmaqla bərabər, zəfərin gül bağçasından deyil, savaşa girən toplumun zehniyyətindən, iradəsindən və arxa cəbhə ilə ön cəbhənin eyni vaxtda nəfəs ala bilməsindən keçdiyini öyrətdilər, qələbə öncə düşüncədə, sonra meydanda çalınır, dedilər.

Kəndimiz bərpa olunana qədər 23 il Cocuq Mərcanlıda 7 nəfər ailə üzvü ilə birlikdə tək yaşayan bibim oğlu Oktay Həziyev Aprel döyüşlərində əsgərlərimizin qəhrəmanlığı, vətənpərvərliyi haqqında həyəcansız danışa bilmir: "Ordumuz misilsiz rəşadət göstərirdi. Əsgərlərimiz mənəvi-psixoloji cəhətdən o qədər güclü idilər ki, adamın həyəcandan sanki ürəyi yerindən çıxacaqdı. Zabitlərimiz əsgərlərə nümunə olaraq öndə gedir, sinələrini sipər edirdilər. Bu, dördgünlük müharibədə qəhrəman əsgər və zabitlərimiz şanlı tarix yazdılar".

Ali Baş Komandanın, qüdrətli ordumuzun rəşadəti sayəsində yenidən öz firavan həyatına qovuşan doğma kəndim Cocuq Mərcanlının giriş qapısındakı yol nişanı buradan yolun Cəbrayıla, Zəngilana, Qubadlıya, Laçına, Füzuliyə, Şuşaya, Xankəndinə getdiyini göstərir!.

Azərbaycan hərb yolu ilə Qarabağ məsələsini həll etmək istəsə, buna mütləq nail olacaq. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin gücü Ermənistanla müqayisədə bunu deməyə əsas verir. İqdisadi üstünlük, əhalinin sayı müharibədə vacib faktordur və məsələdə də, üstünlük bizim tərəfimizdədir. Digər tərəfdən, Ermənistanda Qarabağ məsələsinə münasibət birmənalı deyil. Ermənilər Qarabağda döyüşmək istəmirlər. Bizim gənclərimiz isə torpaqların işğaldan azad edilməsi üçün hər an azğın düşmənlə döyüşə hazırdırlar.

***Səadət Hakıyeva***

*"Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümünə həsr olunmuş "Hər birimiz Vətənə xidmət edirik" mövzusundakı yazı müsabiqəsinə təqdim edilir"*

*Xəbərlər*

## Silsilə tədbirlər atletika yarışları ilə başa çatıb

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibəti ilə Ulyanovskda keçirilən silsilə tədbirlər atletika yarışları ilə başa çatıb. Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) yerli nümayəndəliyinin komandasının və məktəblilərin iştirak etdiyi turnir Azərbaycan xalqının ümummilli liderinin adını daşıyan 78 nömrəli məktəbin stadionunda keçirilib.

Komandalar atletikanın bir neçə növü üzrə qüvvələrini sınayıblar. Qaliblərə mükafatları URAMMM sədri İslam Hüseynov və RAGT-nin Ulyanovsk regional nümayəndəliyinin rəhbəri Üzeyir Hüseynov təqdim edib.

## Dəri əlcək ustalarımız hazırlığa başlayıblar

Gənc boksçulardan ibarət Azərbaycan millisinin növbəti təlim-məşq toplanışına start verilib. Avropa birinciliyindən sonra istirahətdə olan komandamız Sumqayıtda bir araya gəlib.




Yığmamızın baş məşqçisi Vaqif Şirinovun rəhbərliyi altında keçirilən toplanışda 15 boksçu iştirak edir. Hazırlığın ilk mərhələsi iyunun 5-dək davam edəcək. Sumqayıt Olimpiya İdman Kompleksində təşkil edilən toplanışda əsasən fiziki məşqlərə üstünlük verilir.

Bununla da avqust ayında Macarıstanda keçiriləcək dünya birinciliyi və oktyabrda Argentinada təşkil olunacaq Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının hazırlığı başlayıb.

## Beynəlxalq turnirdə 630 taekvondoçu

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş taekvondo üzrə beynəlxalq turnirə yekun vurulub. Uşaq, yeniyetmə və gənclər arasında keçirilən beynəlxalq turnir "Aran" taekvondo klubunun təşkilatçılığı, Ağcabədi rayon Gənclər və İdman idarəsinin, Azərbaycan Taekvondo Federasiyasının dəstəyi keçirilib.

Yarışda respublikanın bölgələrində fəaliyyət göstərən taekvondo klub və bölmələrindən 630 uşaq, yeniyetmə və gənc taekvondoçu mübarizə aparıb.

Ağcabədi Olimpiya İdman Kompleksində Gürcüstanın "Rustavi" taekvondo klubunun da iştirak etdiyi beynəlxalq yarışda döyüşlər "Daedo international" elektron sistemilə keşirilib və qaliblərə təşkilatçılar tərəfindən müvafiq diplom və medallar təltif olunub.

Şəxsi yarışlarda əldə edilən medal sayına görə RUGİM komandası birinci yerə layiq görülüb. "Aran" taekvondo klubu ikinci, Sumqayıtın "Təhsil" komandası isə üçüncü yerə sahib çıxıb.

## Azərbaycan kubokunu "Marafon Futsal" komandası qazanıb

Mayın 22-də futzal üzrə Azərbaycan kubokunun final oyunu keçirilib. Həlledici oyunda iki debütant - "Marafon Futsal" və "Uğur" komandaları qarşılaşıblar.

Xüsusilə, iranlı legionerlərlə güclənmiş tərəflərin dueli kifayət qədər gərgin və maraqlı mübarizə şəraitində keçib. Oyunun əvvəlində "Uğur" 2 top fərqi ilə



önə keçsə də, üstünlüyünü qoruya bilməyib. Əsas qapıçının oyundan əvvəl zədələnməsi də matçın gedişinə təsirsiz ötüşməyib. Rəqibin zəif nöqtəsini tapan Yüksək Liqanın gümüş medalçısı "Marafon Futsal" hesabı bərabərləşdirməklə bərabər fasiləyədək 2 top fərqi ilə üstünlük qazanıb.

İkinci hissədə də təzyiqi artıran "Marafon Futsal" qapıçını meydan oyunçusu ilə əvəzləyən "Uğur"u cəzalandırmağı bacarıb. Matçın gedişində "Marafon Futsal"dan bir, "Uğur"dan iki oyunçu meydandan qovulub.

Beləliklə, 9:6 hesabı ilə qələbə qazanan "Marafon Futsal" debüt ilində ölkə kubokunu qazanmağı bacarıb.

Oyundan sonra qalib komandaya medallar və ölkə kuboku təqdim edilib. Mükafatlandırma mərasimində Azərbaycan Futzal Federasiyasının baş katibi Mahmud Sadıqov və beynəlxalq dərəcəli hakim-inspektor Asim Xudiyev iştirak ediblər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Məhəllə futbolu dünənin, bu günün və sabahın oyunudur

İdmanla məşğul olmaq yeniyetmə və gənclərin fiziki və mənəvi inkişafında olduqca mühüm rol oynayır. Təcrübələr göstərir ki, uşaqlar idmanla nə qədər erkən yaşlarda məşğul olsalar, bu, onlar üçün bir o qədər də faydalıdır. Sevindirici haldır ki, idman ölkəmizdə kifayət qədər inkişaf edib. Uşaqlar arasında bu sahəyə, o cümlədən məhəllə futboluna böyük həvəs var. Dünyanın başqa ölkələrində necə olduğunu deyə bilmərəm, ancaq yaşadığım şəhərdə məhəllə futbolu olduqca çox sevilir. Hər gün axşam işdən və ya dərsdən evə qayıdanda binamızın qabağındakı kiçik meydançada futbol oynayan uşaqları görürəm. Səsləri xeyli aralıdan eşidilir: "qol, qol...", "yox, qol deyil...", "ötür mənə...", "tez qaç...", "topu tut"...

Bu dəfə də həmin mənzərə ilə qarşılaşdım. Təxminən 10-12 məktəbli iki komandaya bölünərək futbol oynayırdılar. Qeyri-iradi olaraq uşaqlıq illərimi xatırladım. Yadıma düşdü ki, bir vaxtlar biz də qonşu uşaqları ilə bu cür həyəcanla futbol oynayırdıq. Sanki Çempionlar Liqasında oynayırmışıq kimi... Əslində məhəllə futbolu uşaqlar üçün Çempionlar Liqasından heç də az həyəcanlı deyil. Yaxşı xatırlayıram, qalib gələndə dünya bizim olurdu, uduzanda isə, necə deyərlər, elə bil ki, "dənizdə gəmimiz batırdı". Qol vuranda da günün qəhrəmanına çevrilirdik... Sevincimizi bölüşməyə adam axtarırdıq. Valideynlərimiz də, həyətdə oturan yaşlı qonşular da bizə maraqla tamaşa edər, həyəcanımıza şərik çıxardılar. Bu ənənə indi də davam edir. Bəlkə, əsrlərlə yaşı olan məhəllə futbolu hələ də öz qiymətini, marağını itirmir. Düşünmək olar ki, bu gedişlə məhəllə futbolu uzun illər uşaqların ən sevimli məşğuliyyəti olacaq.

## Məhəllə futbolunun yazılmamış qanunları

Uşaqların məhəllə futboluna olan maraqları o qədər böyükdür ki, bəzən futbol oynamaq üçün maşın yoluna çıxmaqdan belə çəkinmirlər.

Məhəllə futbolunun yazılmamış qanunlarım da var. Əvvəla, burada hakim olmur. Ona görə yox ki, hakim tapmaq çətin məsələdir. Ona görə ki, uşaqlar saf, pak qəlbli olurlar. Bir-birlərinə inanırlar. Hər nə qədər əvvəldə "burda mənəm, Bağdadda kor xəlifə" desələr də, sonradan bir-birlərinə güzəştə getməyi bacarırlar. Bəlkə də, bu, kiçik inciklik nəticəsində oyunun qəflətən bitməməsi üçün uşaqların "hiylə"sidir. Amma referinin olmamasının az da olsa çətinlik yaradan tərəfləri də var. Belə ki, "ofsayt", "aut" sistemi qüvvədən düşür, futbolçuların heç birinə kart göstərilmir. Komanda üzvlərindən biri yıxılarsa, əməlli-başlı mübahisə yaranır.Yıxılan futbolçunun komandası "penalti" tələb etsə də, qarşı tərəf and-aman edir ki, burada cəriməlik heç nə yoxdur. Müzakirəyə isə yıxılan oyunçunun "bacarığı" son qoyur. Əgər o, əzildiyini, yaxud da, ayağının burxulduğunu qarşı tərəfə inandıra bilsə, penalti təyin olunur. Yaxşı, bəs, penalti məsafəsi necə müəyyən edilir? Burada artıq hər iki komanda ortaq "məxrəcə" gəlməyə məcburdur. Əks halda xeyli vaxt itirməli olacaqlar. Vaxt demişkən, oyunun konkret bitəcəyi məlum deyil. Görüş oyunçular yorulanda bitir. Bir də görürsən ki, oyun başlayanda "bir saat oynayacağıq" deyirlər amma matç o qədər prinsipial keçir ki, görüş saatlarla uzanır. Hətta uşaqların başı mübarizəyə o qədər qarışır ki, mənzillərin pəncərələrindən boylanan valideynlərinin "ay bala, gəl evə, yemək ye" çağırışlarını da eşitmirlər.

Əksər hallarda oyun uşaqlardan birinin topu ilə oynanılır (onlar pul yığıb şərikli top almayıblarsa və ya topu kimdənsə götürməyiblərsə). Əgər topun sahibi digərlərindən inciyərsə, qəfildən topu götürüb gedir, nəticədə oyun gözlənilməz bir vaxtda bitir. Əlbəttə, bunu heç kim istəməz. Elə buna görə də kollektivdə həmişə topun sahibinin xətrinə dəyməməyə çalışır, belə demək mümkünsə, onun nazı ilə oynayırlar. Məhz bu səbəbdən də topun sahibi heç vaxt qapıçı olmur. Əslində uşaqların niyə qapını qorumaq istəməmələri mənim üçün çox maraqlıdır. Axı oyunun taleyinin həll olunmasında qapıçının böyük rolu var. O, məharətlə topun qapıdan keçməsinə mane olmalıdır. Bacarsa, bir anda ən usta və əziz oyunçuya çevriləcək. Buna nail olmayacağı təqdirdə isə elə həmin an komanda yoldaşlarının ittihamları ilə üz-üzə gələcək. Bəlkə də, elə bu səbəbdən, yəni üzərlərinə böyük məsuliyyət düşdüyü üçün uşaqlar qapıçı olmaq istəmirlər. Qapını da elə uşaqlar özləri düzəldirlər. Düzəldirlər deyəndə ki, adətən iki ağır daşı bir-birlərindən təxminən 6-7 metr məsafədə qoyurlar, bu da olur qapı.

Bir çox hallarda nisbətən üzüyola və kök idmançıya qapını qorumağı tapşırırlar. Uşaqlar belə düşünürlər ki, fiziki cəhətdən nisbətən dolu idmançı qapıya tuşlanmış topu daha rahatıqla dəf edə bilər. Halbuki mütəxəssislərin fikrincə, qapını qoruyan futbolçu daha aktiv, hissiyatlı olmalı, tez hərəkət etməyi və ani qərarlar verməyi bacarmalıdır.Məhz bu amili nəzərə alaraq deyə bilərik ki, "məsul posta" kök uşağın təyin olunması o qədər də məqsədəuyğun deyil. Maraqlıdır ki, məktəblilər bu problem üçün optimal bir "çarə" tapıblar. "Qapıçı-oyunçu" anlayışı çoxları üçün yad deyil. Adından da göründüyü kimi, qapıçı həm müdafiədə, həm də hücumda iştirak edə bilər. Əsas odur ki, uşaqlar arasında mehribanlıq olsun və oyun saatlarla davam etsin...

Bir də ki, məhəllə futbolunda hesab fantastik olur. Məsələn, 13:6. Düşünürəm ki, bu, "meydança"nın peşəkar oyunlar keçirilən meydançalara nisbətən kiçikliyi və bir qayda olaraq bütün futbolçuların hücuma meyilli olması, qol vurmağa can atmaları ilə əlaqədardır.

Belə bir misal var: "uduzan pəhləvan güləşə doymaz". Bu, futbolda da belədir. Məğlub olan tərəf mütləq "sabah sərinlik düşən kimi yenidən oynayarıq" ifadəsi ilə rəqib komandanı revanşa çağırır.

## Məhəllə futbolu uşaqların fiziki və mənəvi inkişafında mühüm rol oynayır

Məhəllə futbolunun da öz müsbət, faydalı cəhətləri var. Əvvəla, uşaqlar asudə vaxtlarını səmərəli keçirir, hərəkətdə olurlar. Bu, hər şeydən vacibdir. Təcrübələr göstərir ki, bəzi oğlanlar idmana qarşı həvəssiz olsalar da, yenə də məhəllə "çempionatları"nda əzmlə iştirak edirlər. Bununla da hətta özləri belə fərqində olmadan, sağlamlıqlarının qayğısına qalırlar. Bəzi uşaqların müxtəlif növlərin stabil keçirilən məşqlərinə həvəssiz olduqları halda, məhəllə futboluna böyük maraq göstərmələri heç də təsadüfi deyil. Çünki məhəllə futbolundakı heyətlərdə mübarizə aparan uşaqlar bir-birlərini yaxşı tanıyırlar. Ona görə də onlar özlərini daha sərbəst aparır, mövcud şəraitə daha tez uyğunlaşırlar. Digər bir tərəfdən oyunun qaydalarını özləri müəyyənləşdirir, onlara verilən tapşırıqları kor-koranə, hətta bəzən şüursuz şəkildə yerinə yetirmirlər. Sözsüz ki, bu da uşaqların "işini" asanlaşdırır. Elə uşaqlar var ki, heç cürə məşqçi-müəllimə tabe olmaq istəmir. Ona görə də idman bölmələrinə yazılmağa çəkinirlər. Məhəllə futbolunda isə heç kim heç kimə tabe olmur, sadəcə gücü bir yerə qoyub qalib olmaq üçün mübarizə aparırlar. Bax, elə bu amil də məhəllə futbolunun ikinci müsbət tərəfidir. Belə ki, uşaqlar fərdi yox, kollektiv mübarizə ruhunda böyüyürlər. Həmçinin onlarda dostluq, yoldaşlıq kimi bir çox mənəvi keyfiyyətlər aşılanır. Müşahidələr sübut edir ki, uşaq yaşlarında bu cür oyunlar, o cümlədən məhəllə futbolu oynayanlar gələcəkdə daha humanist və ədalətli olurlar. İkinci bir tərəfdən uşaqlar arasında dostluq, yoldaşlıq əlaqələri möhkəmlənir. Onlar birlikdə mübarizə aparmağı, qələbəni də, məğlubiyyəti də bölüşməyi öyrənirlər. Təcrübələr göstərir ki, bu uşaqlar gələcək peşəkar karyeralarında daha uğurlu olurlar.



Təsadüfi deyil ki, bu gün "yaşıl meydan"ların ən bacarıqlı qəhrəmanları uşaq yaşlarında saatlarla məhəllələrində top qovublar. Belə futbolçulardan biri də türkiyəli ulduz Arda Turandır. O, açıqlamalarının birində məhəllə futbolu haqqında belə deyib: "Küçədə futbolu ona görə oynayırlar ki, məsələn, peçenye ala biləsən. Qaydalara görə, cibinizdə pul yoxdur. Sizdə olan yalnız istedaddır - küçədə inkişaf edən istedad. Məhəllə futbolu adama çox şey öyrədir, o cümlədən verdiyin sözə əməl etməyi də. Bax, mən belə böyümüşəm. Həmin vaxt futbol oynamaqdan yaxşı heç nə yox idi. Onu da deyim ki, küçə futbolunun öz qaydaları var. Məsələn, cinah futbolçusu topun qarşısını əllə kəsərdisə, onda iki penalti təyin olunurdu. Bu, küçə futbolunun yazılmamış "fair play" qaydası idi".

Psixoloqların fikrincə, bir işi keyfiyyətlə yerinə yetirmək üçün onu özümüzə görə maraqlı etməli və bilavasitə hər bir addımdan zövq almalıyıq. Bu mənada məhəllə futbolu oynayanlar öz işlərinin öhdəsindən layiqincə gəlir, yəni bədən quruluşlarının, sağlamlıqlarının qayğısına böyük həssaslıqla yanaşırlar. Həm də bu oyunlar çox vaxt stimul mənbəyi olur. Uşaqlar bəzən saatlarla yorulmadan top qovurlar. Adətən, uduzan komandanın oyunçuları pul yığıb qaliblərə tort alırlar. Kim kifayət qədər yorulduqdan sonra tortla çay içmək istəməz ki?.. Ya da məğlub kollektiv yeni top alır və növbəti oyunu təzə topla oynayırlar. Bu, uşaqları o qədər sevindirir ki...



## "Futbol yeganə idman növdür ki..."

Məhəllə futbolunun ən əhəmiyyətli cəhətlərindən biri də onun uşaq idmanının və ümumilikdə bədən tərbiyəsinin kütləviləşməsinə, yeniyetmə və gənclərin bu sahəyə daha çox maraq göstərməsinə kömək olmasıdır. Belə ki, bəzən məhəllə daxilində keçirilən oyunlardan sonra artıq "yığma komanda" formalaşır və qonşu məhəllələrin uşaqları ilə öz aralarında qarşılaşmalar təyin edirlər. Nəticədə daha çox uşaq idmanla məşğul olur və onlar daha sağlam ruhda böyüyürlər. Eyni zamanda rəqabət də daha gərgin, daha güclü olur. Hamıya məlumdur ki, inkişaf üçün rəqabət əsas şərtlərdəndir. Deməli, məhəllə futbolu ilə intensiv məşğul olmaq birbaşa inkişafa yol açır. Təsadüfi deyil ki, bu gün paytaxt və bölgələrdə bir sıra futbol klubları fəaliyyət göstərir. Həmin klublarda müxtəlif yaşlı futbolsevərlər məşq edir və məşqçi-müəllimlər tərəfindən bu növün sirlərinə yiyələnirlər. Məhz məktəblilərin futbola olan marağı və hətta, belə demək mümkünsə, tələbatı nəticəsində son bir neçə ildə uşaq futbolunda nəzərəçarpacaq irəliləyişlər müşahidə olunur. Kütləvilik artıb, yeni futbol məktəbləri və akademiyalar açılıb, uşaq futbolunda bəzi yerlərdə infrastruktur yenilənib, uşaqlar arasında keçirilən birinciliklərin sayı artıb və s. Bir neçə ildir ki, orta məktəblərdə keçirilən olunan fiziki tərbiyə fənninin tədrisində futbol xüsusi bir sahə kimi şagirdlərə öyrədilir. Buyaxınlarda 11 il təhsil aldığım Nizami rayonundakı 70 saylı məktəb-liseyin təcrübəli idman müəllimlərindən biri - Telli Şükraninin məhəllə futbolu ilə bağlı fikirlərini öyrənmək üçün adını çəkdiyim təhsil müəssisəsinə yollandım. Təcrübəli müəllimə şagirdlərini sıraya düzərək, onları məktəbin yanındakı meydançaya futbol oynamağa aparmağa hazırlaşdırırdı. Telli müəllimənin sözlərinə görə, uşaqlar arasında futbolun bu dərəcədə sevilməsinin əsas səbəbi həmin növün dünyada ən populyar növ kimi tanınmasıdır. "Bu gün futbol dünyada ən çox auditoriya cəlb edən idman növüdür. Futbol yeganə növdür ki, azarkeşlik bəzən çox ciddi həddə gəlib çıxır. İnsanlar arasında münaqişələr olur, onlar günlərlə ac-susuz, yuxusuz qalırlar, komandalarına dəstək olmaq üçün başqa bir ölkəyə gedirlər. Niyə heç bir növdə azarkeşlik bu dərəcəyə çatmır? Bu, heç də təsadüfi deyil. Qeyd etdiyim amil, futbolun dünyada ən populyar idman yayımı olması ilə bağlıdır. Atalar evdə böyük maraq və həyəcanla gərgin keçən matçları izləyirlər. Bu zaman bir çox hallarda övladları da onların yanında olur və istər-istəməz uşaqlarda da futbola həvəs yaranır. Yaxud da, bir də görürsən, atalar öz uşaqları ilə birlikdə birbaşa stadiona gedir, sevdiyi komandalar azarkeşlik edirlər. Belə olan halda uşaqlar da tez bir zamanda müxtəlif komandaların, futbolçuların adlarını öyrənir və kumirlərini seçirlər. Sonra bir-birləri ilə həmin komandanın və futbolçunun daha güclü olması ilə bağlı müzakirələr, mübahisələr edirlər. Beləliklə, məhəllə futbolu anlayışı meydana çıxır. Əslində, uşaqların futbola maraq göstərmələri heç də pis deyil, əksinə, çox sevindiricidir. Bir şərtlə ki, bu sevgi həddini aşmasın", - deyə Telli Şükrani bildirdi. Qısa şəkildə Telli xanımın məhəllə futbolu ilə bağlı fikirlərini öyrəndikdən sonra qərara gəldim ki, mən də onlarla birlikdə meydançaya gedib oyunu izləyim. Məhəlləmizdə olduğu kimi məktəbin meydançasında da uşaqlar böyük həvəslə, əzmkarlıqla, hətta prinsipiallıqla qələbə üçün mübarizə aparırdılar. Çox keçmədi, gördüm ki, yuxarı sinif şagirdləri pəncərədən boylanıb görüşü izləyirlər. Həmçinin yoldan keçənlər də uşaqlara azarkeşlik etmək üçün "stadion"un ətrafına toplaşırlar. Əlbəttə, bu da futbolun tamaşaçını özünə cəlb etmək bacarığından, oyunun gözəlliyindən xəbər verir. Ətrafdakıların onlara tamaşa etdiyini görən futbolçular da daha əzmlə oynayır, daha sürətli qaçırdılar. Görüş təxminən yarım saat çəkdi. Hesab isə gözlənilməz oldu - 6:4. Yəni ümumilikdə, oyunda 10 qol vuruldu. Hər üç dəqiqəyə bir qol düşürdü. Bu, o deməkdir ki, futbolçuların hər biri qələbə eşqi ilə mübarizə aparır, hesabı dəyişmək üçün, necə deyərlər, dəridən-qabıqdan çıxırdılar. Müəllimə matçın başa çatdığını işarə edən fiti səsləndirdikdən sonra uşaqlar formalarını dəyişmək üçün sinfə qayıtdılar.

## Məhəllə futbolunda təhlükəsizlik diqqətdə saxlanmalıdır

Məhəllə futbolunun faydaları haqqında kifayət qədər danışdıq. Futbol elə idman növüdür ki, burada zədə almaq ehtimalı həmişə var. Əgər söhbət məhəllə futbolundan gedirsə, məsələ daha da ciddiləşir. Axı məhəllə futbolunda uşaqlar heç də həmişə yaşıl otü üzərində oynamırlar. Həm də bir çox hallarda futbolçuların keyfiyyətli idman ayaqqabısı, corab olmur. Məhəllə futbolunda zədə alanlara ilkin tibbi yardım göstərmək üçün həkim isə ümumiyyətlə yoxdur. Ona görə də, uşaqlar oyun zamanı təhlükəsizliyə diqqət etməli, ehtiyatlı davranmalıdırlar. Məhəllə futbolu oynayan uşaqlar üçün qarşılaşmadan sonra yarım litr sərin su içmək qədər gözəl ikinci bir an yoxdur. Ancaq bu, olduqca səhvdir və birbaşa onların sağlamlıqlarına öz mənfi təsirini göstərə bilər. Çünki uşaqlar meydanda qaçaraq kifayət qədər tərləyirlər. Tərli-tərli soyuq su içmək isə birbaşa xəstəliyə səbəb ola bilər. Digər bir tərəfdən, uşaqlar evə qayıtdıqdan sonra mütləq ilk növbədə əllərini yumalı və formalarını dəyişməlidirlər. Yalnız bundan sonra yemək masasına əyləşmək olar.

Göründüyü kimi, məhəllə futbolunun müsbət cəhətləri olduqca çoxdur. Buna baxmayaraq, diqqətli olmaqda da fayda var. Çalışmaq lazımdır ki, məhəllə futbolunun köməkliyi ilə asudə vaxtımızı səmərəli keçirməklə yanaşı, həm də sağlamlığımızın qayğısına qalaq. Məhəllə futbolunun başqa nə kimi faydalarının olduğunu deyə bilmərəm. Amma bir şey dəqiqdir ki, bu oyunun əsrlərlə yaşı var və uşaqlar arasında çox sevilir. Yuxarıda da qeyd etdiyim kimi, məhəllə futbolu özündə bir çox milli-mənəvi dəyərləri, o cümlədən dostluq, yoldaşlıq kimi keyfiyyətləri cəmləyir. Bu günkü uşaq, yeniyetmə və gənclər həmin milli-mənəvi dəyərləri yaşatmaqla bərabər, həm də onları gələcək nəsillərə ötürürlər.

Məqaləni yazıb başa çatdırırdım ki, pəncərədən həyətə boylandım. Gördüklərim məni bird aha əmin etdi ki, məhəllə futbolu hələ uzun illər yaşayacaq. Uşaqlar həyətdə öz "El klasiko"larını keçirirdilər...

Nəticə çoxları üçün maraqlı idi. Qarşılaşmanın nə vaxt bitəcəyini isə özləri də daxil olmaqla heç kim bilmirdi...

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Kiyevdə final: "Ağlarla" "qırmızılar"ın rəngli mübarizəsi




***Sabah bütün dünyanın diqqəti Ukraynaya yönələcək. Paytaxt Kiyevin "Olimpiyski" stadionunda UEFA Çempionlar Liqasının 2017-2018-ci illər mövsümü üzrə final görüşünün qalibi müəyyənləşəcək. Son iki mövsümün qalibi olan Madrid "Real"ı Liverpulun eyni adlı komandası ilə üz-üzə gələcək.***

***Ümumiyyətlə qitənin ən nüfuzlu klub turniri bir sıra maraqlı faktlarla diqqət çəkir. Yarışın tarixinə nəzər salsaq görərik ki, Çempionlar Liqasında rəqəmlər və rekordlar bir-birini tamamlayır.***

Belə ki, bu mövsümə qədər Çempionlar Liqasında 22 komanda çempion adını qazanıb. Onların arasında 12 klub cəmi bir dəfə baş mükafata layiq görülüb. Turnirdə ən çox İspaniya klubları fərqlənib. La Liqa təmsilçiləri 17 dəfə finalda seviniblər. Onların arasında ən çox mükafat qazanan klub isə Madrid "Real"ıdır - 12 dəfə. "Kral klubu" formatı 6 dəfə dəyişdirlən Liqanın hər birində baş mükafata yiyələnib.

Çempionlar Liqası ən çox gəlir gətirən klub turniri kimi liderliyi əldən vermir. Təsnifat mərhələsində fərəqlənən klub 220 min avro qazandığı halda, finala doğru irəliləyən klub gəlirini daha da artırır. Çempion adını qazanan kluba isə 60 milyon avro məbləğində pul mükafatı verilir. Qitənin ən nüfuzlu klub yarışının əsl kuboku qalib komandanın muzeyində 10 aya qədər saxlanılır. Sonradan isə həmin mükafatın oxşarı (80 faiz oxşarı) həmişəlik olaraq kluba təqdim olunur. Amma bu hələ son deyil. Belə ki, əgər bir klub eyni mükafatı 5 dəfə fərqli, 3 dəfə isə ardıcıl qazanırsa, onda kubokun əsli həmin kluba hədiyyə olunur. Kubokuna əsil variantına sahib olan klublar arasında Madrid "Real"ı liderlik edir. Əgər İspaniya təmsilçisi sabahkı oyunda qalib gəlsə, onda həmin mükafat "Kral klubu"nun muzeyində əbədi olaraq qalacaq. Xatırladaq ki, UEFA Çempionlar Liqasının kuboku bernli zərgər Yurq Ştadelman tərəfindən hazırlanıb. Onun maya dəyəri 10 min isveçrə frankına bərabərdir. Ştadelman hündürlüyü 62 sm, çəkisi 7,5 kq kuboku gümüş və qızılın qarışığından hazırlayıb.

## Tərəflər finala fərqli yanaşır

Madrid "Real"ı ilə "Liverpul" arasında keçirilən final görüşü DÇ-2018 ərəfəsində ən çox müzakirə olunan idman hadisəsidir. Statistikaya görə "Kral klubu" bu görüşün aşkar favoritidir. Amma son illərdə sürətlə inkişaf edən, bir sıra klubları mübarizədən kənarlaşdıran İngiltərə təmsilçisinin də şansları kifayət qədərdir. Hazırda dünya KİV-ləri final barədə ən son məlumatları ictimayyətə çatdırmağa çalışırlar. Ən maraqlı xəbərlər isə hər iki tərəfin oyun barədə fikirlərindən ibarətdir. "Olimpiya dünyası" qəzeti həmin fikirlərdən bir neçəsini oxuculara təqdim edir.

## Zinədin Zidan: ""Liverpul" bizimlə final oynamaq üçün ən yaxşı namizəddir"

- Üçüncü dəfə ardıcıl qələbə? Sizcə, bu mümkün deyil? Mümkün olmayan heç nə yoxdur. İstək var, güc var. "Real"da həmişə bu xüsusiyyətlər olub, olacaq. Biz hər zaman hər şeyin yaxşısını və özümüzə layiq bildiyimizi istəmişik. Rəqibimiz barədə müsbət fikirdəyəm. Bu il "Liverpul" əla çıxış edib. Bizimlə final oynamaq üçün ən yaxşı namizəddir. Klubun gözəl oyun nümayiş etdirən futbolçuları var. Təşəbbüsü əldən verməsək, kuboku Madridə apara biləcəyik. Çox güman ki, bu belə olacaq.

## Yurgen Klopp: "Onlar "buza" bənzəyirlər"

- "Real" iki ildir ki, qarşısıalınmaz bir kluba çevrilib. Onlar "buza" bənzəyirlər. Rəqibləri nə qədər güclü olursa, olsun, fərq etmir. Özlərini soyuqqanlı aparırlar. Lazımi məqamda onlar hücuma keçir, məsələni kökündən həll edirlər. Biz bunu ətraflı təhlil etmişik. "Liverpul" isə döyüşkən kollektivə malikdir. Hər bir məqama diqqətlə yanaşıb, rəqibi qabaqlamağa çalışacağıq. Finala qədər buraxdığımız səhvləri son matçda aradan qaldırmaq istəyirik. Bu il biz çempion olmalıyıq. Çünki finala qədər bir sıra "nəhənglər"i mübarizədən kənarlaşdırmışıq. Hər şeyə nikbin yanaşıram.

## Kriştianu Ronaldu: "Bunu "Liverpul"a qarşı hörmətsizlik kimi qəbul etməyin"

- Final hər zaman ən yadda qalan hadisədir. Əslində mən finalda "Mançester Yunayted"ə qarşı oynamaq istəyirdim. Bunu "Liverpul"a qarşı hörmətsizlik kimi qəbul etməyin. İngiltərə təmsilçisinə qarşı oynamaq heç də asan olmayacaq. Amma biz ardıcıl üçüncü dəfə kuboka sahib olmaq istəyirik. Qoy, kubokun əsli "Real"ın muzeyində qalsın.

## Məhəmməd Salah: "İmkan düşən kimi onları büdrətməyə çalışacağıq"

- Komandamız bu yarışda çıxış etdiyi gündən bəri tam əmin deyildim ki, finala qədər gəlib çıxacağıq. Hər matçdan sonra bu inam artmağa başladı. Hər şey özümüzdən asılıdır. Kuboku qazanmaq üçün cəmi bir oyun qalıb. Bunun üçün özümüzdə güc saxlamışıq. Rəqibimiz isə çox güclüdür. İmkan düşən kimi onları büdrətməyə çalışacağıq. "Liverpul" "Real"a qalib gələcək, desəm, arxayınlıq olar.

***Anar Əhmədov***

### UEFA Çempionlar Liqasının 2017-2018-ci illər mövsümü üzrə məhsuldar oyunçuları

| Futbolçu | Komanda | Oyun | Qol |
|---|---|---|---|
| *Kriştianu Ronaldu* | *Real* | *12* | *15* |
| *Məhəmməd Salah* | *Liverpul* | *14* | *11* |
| *Roberto Firmino* | *Liverpul* | *14* | *11* |
| *Vissam Ben-Yedder* | *Sevilya* | *11* | *10* |
| *Sadio Mane* | *Liverpul* | *12* | *9* |
| *Edin Ceko* | *Roma* | *12* | *8* |
| *Harri Keyn* | *Totenhem* | *7* | *7* |
| *Edinson Kavani* | *PSJ* | *8* | *7* |
| *Neymar* | *PSJ* | *7* | *6* |
| *Lionel Messi* | *Barselona* | *10* | *6* |

### UEFA Çempionlar Liqasının bütün finalları

| *Mövsüm* | *Çempion* | *Hesab* | *Finalçı* | *Ev sahibi stadion* | *Şəhər* |
|---|---|---|---|---|---|
| 1. 1955-56 | Real (İspaniya) | 4:3 | Reyms (Fransa) | Park de Prens | Paris |
| 2. 1956-57 | Real (İspaniya) | 2:0 | Fiorentina (İtaliya) | Santiyaqo Bernabeu | Madrid |
| 3. 1957-58 | Real (İspaniya) | 3:2* | Milan (İtaliya) | Heysel | Brüssel |
| 4. 1958-59 | Real (İspaniya) | 2:0 | Reyms (Fransa) | Nekkar | Ştutqart |
| 5. 1959-60 | Real (İspaniya) | 7:3 | Ayntraxt (Almaniya) | Hempden Park | Qlazqo |
| 6. 1960-61 | Benfika (Portuqaliya) | 3:2 | Barselona (İspaniya) | Vankdorf Arena | Bern |
| 7. 1961-62 | Benfika (Portuqaliya) | 5:3 | Real (İspaniya) | Olimpiya | Amsterdam |
| 8. 1962-63 | Milan (İtaliya) | 2:1 | Benfika (Portuqaliya) | Uembli | London |
| 9. 1963-64 | İnter (İtaliya) | 3:1 | Real (İspaniya) | Prater | Vyana |
| 10. 1964-65 | İnter (İtaliya) | 1:0 | Benfika (Portuqaliya) | San Siro | Milan |
| 11. 1965-66 | Real (İspaniya) | 2:1 | Partizan (keçmiş Yuqoslaviya) | Heysel | Brüssel |
| 12. 1966-67 | Seltik (Şotlandiya) | 2:1 | İnter (İtaliya) | Milli | Lissabon |
| 13. 1967-68 | Mançester Yunayted (İngiltərə) | 4:1* | Benfika (Portuqaliya) | Uembli | London |
| 14. 1968-69 | Milan (İtaliya) | 4:1 | Ayaks (Hollandiya) | Santiyaqo Bernabeu | Madrid |
| 15. 1969-70 | Feyenoord (Hollandiya) | 2:1* | Seltik (Şotlandiya) | San Siro | Milan |
| 16. 1970-71 | Ayaks (Hollandiya) | 2:0 | Panatinaikos (Yunanıstan) | Uembli | London |
| 17. 1971-72 | Ayaks (Hollandiya) | 2:0 | İnter (İtaliya) | De Kuip | Rotterdam |
| 18. 1972-73 | Ayaks (Hollandiya) | 1:0 | Yuventus (İtaliya) | Srvena Zvezda | Belqrad |
| 19. 1973-74 | Bayern Münhen (Almaniya) | 4:0** | Atletiko (İspaniya) | Heysel | Brüssel |
| 20. 1974-75 | Bayern Münhen (Almaniya) | 2:0 | Lids Yunayted (İngiltərə) | Park de Prens | Paris |
| 21. 1975-76 | Bayern Münhen (Almaniya) | 1:0 | Sent-Etyen (Fransa) | Hempden Park | Qlazqo |
| 22. 1976-77 | Liverpul (İngiltərə) | 3:1 | Borussiya Münhenqladbax (Almaniya) | Olimpiya | Roma |
| 23. 1977-78 | Liverpul (İngiltərə) | 1:0 | Brügge (Belçika) | Uembli | London |
| 24. 1978-79 | Nottinqem Forest (İngiltərə) | 1:0 | Malmö (İsveç) | Olimpiya | Münhen |
| 25. 1979-80 | Nottinqem Forest (İngiltərə) | 1:0 | Hamburq (Almaniya) | Santiyaqo Bernabeu | Madrid |
| 26. 1980-81 | Liverpul (İngiltərə) | 1:0 | Real (İspaniya) | Park de Prens | Paris |
| 27. 1981-82 | Aston Villa (İngiltərə) | 1:0 | Bayern Münhen (Almaniya) | De Kuip | Rotterdam |
| 28.1982-83 | Hamburq (Almaniya) | 1:0 | Yuventus (İtaliya) | Olimpiya | Afina |
| 29.1983-84 | Liverpul (İngiltərə) | 1:1 (4:2) | Roma (İtaliya) | Olimpiya | Roma |
| 30. 1984-85 | Yuventus (İtaliya) | 1:0 | Liverpul (İngiltərə) | Heysel | Brüssel |
| 31. 1985-86 | Styaua (Rumıniya) | 0:0 (2:0) | Barselona (İspaniya) | Ramon Sançez Pisxuan | Sevilya |

### UEFA Çempionlar Liqasının bütün finalları

| *Mövsüm* | *Çempion* | *Hesab* | *Finalçı* | *Ev sahibi stadion* | *Şəhər* |
|---|---|---|---|---|---|
| 32. 1986-87 | Portu (Portuqaliya) | 2:1 | Bayern Münhen (Almaniya) | Prater | Vyana |
| 33. 1987-88 | PSV (Hollandiya) | 0:0 (6:5) | Benfika (Portuqaliya) | Nekkar | Ştutqart |
| 34. 1988-89 | Milan (İtaliya) | 4:0 | Styaua (Rumıniya) | Kamp Nou | Barselona |
| 35. 1989-90 | Milan (İtaliya) | 1:0 | Benfika (Portuqaliya) | Prater | Vyana |
| 36. 1990-91 | Srvena Zvezda (Yuqoslaviya) | 0:0 (5:3) | Marsel (Fransa) | San Nikola | Bari |
| 37. 1991-92 | Barselona (İspaniya) | 1:0* | Sampdoriya (İtaliya) | Uembli | London |
| 38. 1992-93 | Marsel (Fransa) | 1:0 | Milan (İtaliya) | Olimpiya | Münhen |
| 39. 1993-94 | Milan (İtaliya) | 4:0 | Barselona (İspaniya) | Olimpiya | Afina |
| 40. 1994-95 | Ayaks (Hollandiya) | 1:0 | Milan (İtaliya) | Ernst-Happel | Vyana |
| 41. 1995-96 | Yuventus (İtaliya) | 1:1 (4:2) | Ayaks ( Hollandiya) | Olimpiya | Roma |
| 42. 1996-97 | Borussiya Dortmund (Almaniya) | 3:1 | Yuventus (İtaliya) | Olimpiya | Münhen |
| 43.1997-98 | Real (İspaniya) | 1:0 | Yuventus (İtaliya) | Amsterdam Arena | Amsterdam |
| 44. 1998-99 | Mançester Yunayted (İngiltərə) | 2:1 | Bayern Münhen (Almaniya) | Kamp Nou | Barselona |
| 45. 1999-00 | Real (İspaniya) | 3:0 | Valensiya (İspaniya) | Stad de Frans | Paris |
| 46. 2000-01 | Bayern Münhen (Almaniya) | 1:1 (5:4) | Valensiya (İspaniya) | San Siro | Milan |
| 47. 2001-02 | Real (İspaniya) | 2:1 | Bayer Leverkusen (Almaniya) | Hempden Park | Qlazqo |
| 48. 2002-03 | Milan (İtaliya) | 0:0 (3:2) | Yuventus (İtaliya) | Old Trafford | Mançester |
| 49. 2003-04 | Portu (Portuqaliya) | 3:0 | Monako(Fransa) | Veltins-Arena | Gelzenkirxen |
| 50. 2004-05 | Liverpul (İngiltərə) | 3:3 (3:2) | Milan (İtaliya) | Atatürk Olimpiya | İstanbul |
| 51. 2005-06 | Barselona (İspaniya) | 2:1 | Arsenal (İngiltərə) | Stad de Frans | Paris |
| 52. 2006-07 | Milan (İtaliya) | 2:1 | Liverpul (İngiltərə) | Olimpiya | Afina |
| 53. 2007-08 | Mançester Yunayted (İngiltərə) | 1:1 (6:5) | Çelsi (İngiltərə) | Lujniki | Moskva |
| 54. 2008-09 | Barselona (İspaniya) | 2:0 | Mançester Yunayted (İngiltərə) | Olimpiya | Roma |
| 55. 2009-10 | İnter (İtaliya) | 2:0 | Bayern Münhen (Almaniya) | Santiyaqo Bernabeu | Madrid |
| 56. 2010-11 | Barselona (İspaniya) | 3:1 | Mançester Yunayted (İngiltərə) | Uembli | London |
| 57. 2011-12 | Çelsi (İngiltərə) | 1:1 (4:3) | Bayern Münhen (Almaniya) | Allianz Arena | Münhen |
| 58. 2012-13 | Bayern Münhen (Almaniya) | 2:1 | Borussiya Dortmund (Almaniya) | Uembli | London |
| 59. 2013-14 | Real (İspaniya) | 4:1* | Atletiko (İspaniya) | Da Luz | Lissabon |
| 60. 2014-15 | Barselona (İspaniya) | 3 :1 | Yuventus (İtaliya) | Olimpiya | Berlin |
| 61. 2015-16 | Real (İspaniya) | 1:1 (5:3) | Atletiko (İspaniya) | San Siro | Milan |
| 62.2016-17 | Real (İspaniya) | 4:1 | Yuventus (İtaliya) | Millennium | Kardiff |

# FUTBOL



Futbol üzrə 2026-cı ildə keçiriləcək XXII dünya çempionatına birgə ev sahibliyi üçün namizədliklərini irəli sürmüş ABŞ, Kanada və Meksika Futbol federasiyalarının tender qrupunun üzvlərindən ibarət nümayəndə heyəti Bakıya səfər edib. AFFA-nın inzibati binasında Assosiasiyanın prezidenti Rövnəq Abdullayev və baş katib Elxan Məmmədov ilə görüşən qonaqlar dünya çempionatına ev sahibliyinə namizədlikləri ilə bağlı təqdimatla çıxış ediblər.

Dünya çempionatını qəbul etmək üçün namizədliyini irəli sürmüş digər ölkə Mərakeşdir.

## 2026-cı il dünya çempionatının Bakıda təqdimatı olub

## Baş məşqçi yoldaşlıq oyunu ərəfəsində KİV-ləri bir araya toplayacaq

Mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək Azərbaycan - Qırğızıstan yoldaşlıq oyunu ərəfəsində millimizin mətbuat üçün açıq məşqi olacaq və baş məşqçi Qurban Qurbanovla bir neçə futbolçunun iştirak edəcəyi mətbuat konfransı keçiriləcək. Artıq bu tədbirlərin vaxtı dəqiqləşib.

Mayın 26-da ilk 15 dəqiqəsi mətbuat üçün açıq məşq baş tutacaq. Tofiq Bəhramov adına Respublika stadionundakı hazırlıq 18:00-da başlayacaq.

Qurbanovun mətbuat konfransı ertəsi gün olacaq. "Hyatt Regency oteli"nin Nizami zalında keçiriləcək tədbir saat 12:00-da başlayacaq.

## "Uğur" mövsümü adına uyuğun yekunlaşdırdı

AFFA-nın təşkil etdiyi futbol üzrə Region Liqası başa çatıb.

Bayıl stadionunda keçirilən final oyununda Sumqayıtın "Uğur" və Mingəçevirin "Energetik" komandaları qarşılaşıblar.

Rəqibinə 2:0 hesabı ilə qalib gələn "Uğur" 2017/2018-ci il mövsümünün qalibi olub. Üçüncü yeri isə "Füzuli" komandası tutub. Oyun başa çatdıqdan sonra mükafatlandırma mərasimi təşkil olunub. Mükafatları AFFA-nın birinci vitse-prezidenti, Milli Məclisin deputatı Rauf Əliyev, baş katib Elxan Məmmədov, AFFA-nın İcraiyyə Komitəsinin üzvləri İskəndər Cavadov və Vaqif Sadıqov təqdim ediblər.

Region Liqasının bombardiri 13 qolla Balazahir Əsədullayev ("Şağan") olub. "Uğur" komandasının üzvü Nahid Mehrəliyev liqanın ən yaxşı futbolçusu, Şöhrət Rəhimov ("Füzuli") ən yaxşı qapıçısı seçilib.

## "Qarabağ" səpələnmiş 14 klub arasında yer aldı

***Çempionlar Liqasının 2018-2019 mövsümünün daha bir iştirakçısı müəyyənləşib. Qitənin ən nüfuzlu klub turnirində San-Marinonu "La Fiorita" təmsil edəcək. Bu komanda final mərhələsi olimpiya sistemi ilə keçirilən San-Marino çempionatının son görüşündə "Folqor"la üzüzə gəlib. 1:0 hesablı qələbə Monteqiardino təmsilçisinə ardıcıl 2-ci, ümumilikdə 5-ci çempionluq bəxş edib.***

Təsnifat mərhələlərindən söz düşmüşkən, Çempionlar Liqası və Avropa Liqasının qaliblərinin öz ölkəsindən birbaşa qrupa yüksəlməsi bir sıra dəyişikliklərə səbəb olub. Buna görə də I təsnifatda 34 deyil, 32 komanda oynayacaq. Danimarka və Belarus çempionları bu raunddan azad edilib.

Digər 32 klubdan biri ilkin mərhələdən gələcəksə, 31-i mübarizəyə birbaşa buradan başlayacaq. Həmin 31 komandadan 29-u bəllidi. Yalnız Macarıstan və Sloveniya çempionları bilinmir.

Bununla da ilk dəfə təşkil olunacaq təsnifatdan öncəki ilkin mərhələnin bütün iştirakçıları müəyyənləşib. Qitənin ən zəif 4 çempionu iyunun 12-dəki püşkatmada 2 cütlüyə bölünəcək. Onlar ayın 26-da yarımfinal, 29-da final matçında təsnifat mərhələsinə yeganə vəsiqənin sahibini müəyyənləşdirəcəklər. Azərbaycan yığmasının sabiq futbolçusu Amit Quluzadənin çıxış etdiyi Kosovo "Drita"sı da bu mərhələdə mübarizə aparacaq.




Bu səbəbdən çempionlardan 4-nün püşkdəki səbəti də bəlli deyil. Digər 27 komanda isə artıq iki hissəyə bölünüb.

Azərbaycan çempionu "Qarabağ" səpələnmiş 14 klub arasındadı. Səpələnməmişlərdən 13-ü bilinir. Burada 14-cü komanda ilkin mərhələdəki "dördlük"dən biri olacaq. Bu isə o deməkdir ki, artıq hər bir səpələnmiş klubun 17 mümkün rəqibi var. Lakin"Qarabağ" Ermənistan çempionu ilə qarşılaşa bilməz. Ona görə də Azərbaycan çempionu ilkin mərhələnin 4, I təsnifatın 12 komandası ilə qarşılaşmaq imkanına malikdi.

Qeyd edək ki, I təsnifat mərhələsinin püşkü iyunun 19-da atılacaq. Oyunlar isə iyulun 10-11 və 17-18-də təşkil olunacaq.

### Çempionlar Liqası

#### İlkin mərhələ

*Səpələnmişlər*

"Santa Koloma" (Andorra)
"Linkoln" (Cəbəllütariq)
Səpələnməmişlər
"La Fiorita" (San-Marino)
"Drita" (Kosovo)

Bu 4 komanda hələlik Azərbaycan çempionu "Qarabağ" üçün də potensial rəqib sayılır. Çünki onlardan biri - təsnifat mərhələsinə yüksələcək komanda təmsilçimizlə görüşə bilər.

#### I təsnifat mərhələsi

Səpələnmişlər

"Lüdoqorets" (Bolqarıstan)
"Seltik" (Şotlandiya)
APOEL (Kipr)
"Legiya" (Polşa)
"Astana" (Qazaxıstan)
"Qarabağ" (Azərbaycan)
"Şerif" (Moldova)
"Malmö" (İsveç)
"Srvena Zvezda" (Serbiya)
"Hapoel" (Beyer-Şeva, İsrail)
"Rusenborq" (Norveç)
HİK (Finlandiya)
TNS (Uels)
"Kukesi" (Albaniya)

Səpələnməmişlər

"Düdelanj" (Lüksemburq)
"Spartak" (Slovakiya)
"Valletta" (Malta)
"Vikinqur" (Farer adaları)
"Kruzaders" (Şimali İrlandiya)
"Akaçkert" (Ermənistan)
"Sutyeska" (Monteneqro)
"Suduva" (Litva)
"Kork Siti" (İrlandiya)
"Spartak" (Latviya)
"Valyur" (İslandiya)
"Flora" (Estoniya)
"Torpedo" (Kutaisi, Gürcüstan)

#### İlkin mərhələnin qalibi

Qeyri-müəyyənlər

"Şkendiya" (Makedoniya)
"Zrinski" (Bosniya və Herseqovina)
Macarıstan çempionu
Sloveniya çempionu

# Transfer xəbərləri

İtaliyanın "Napoli" klubu yeni baş məşqçisinin adını açıqlayıb. Neapol təmsilçisi italiyalı mütəxəssis Karlo Ançelotti ilə razılığa gəlib. Sabiq məşqçi Maurisio Sarri ilə yollarını ayıran "Napoli" "Papa Karlo" ilə üç illik müqavilə imzalayıb. Son iş yeri "Bavariya"olan 58 yaşlı Ançelotti karyerası ərzində "Real", "Milan", PSJ, "Çelsi", "Yuventus", "Parma" və "Recina"da da fəaliyyət göstərib. Sarri isə yaxın günlərdə "Çelsi" ilə yeni müqaviləyə imza atacaq.

İngiltərənin "Stok Siti" klubunun yeni baş məşqçisi müəyyənləşib. Bu vəzifəyə Hari Rouett təyin olunub. Buna qədər o, "Derbi Kaunti" klubunda işləyib. Yeni baş məşqçi klub Premyer Liqanı tərk edəndən sonra Pol Lamberti əvəzləyib. 44 yaşlı mütəxəssisin komandası birinci diviziondan Premyer Liqaya vəsiqə üçün pley-off oynayan "Fulhem"ə yarımfinalda uduzmuşdu.

**PSJ** "Yuventus"un sabiq qapıçısı Canluici Buffonla uzun müddət əməkdaşlıq etmək niyyətindədi. Paris klubu "Cici"yə 4 illik müqavilə təklif edib.Tərəflər arasında gedən danışıqlarda müsbət nəticələr əldə olunub. Yekun qərar Buffonun şəxsi istəyindən asılı olacaq. Qeyd edək ki, Canluici Buffon azad agent kimi "Yuventus"dan ayrılıb. Geridə qalan mövsümdə İtaliya A Seriyasında 21 matçda meydana çıxan 40 yaşlı qapıçı ümumilikdə 14 qol buraxıb

**"Yuventus"**un baş məşqçisi Massimiliano Alleqri komandasının yay "transfer pəncərəsi" üçün əsas hədəflərini müəyyənləşdirib. İtaliyalı mütəxəssis rəhbərlikdən "Latsio"nun futbolçusu Sergey Milinkoviç-Saviçin transferini tələb edib. Əgər serbiyalı futbolçunun transferi baş tutmasa, Alleqri Pol Poqbanın geri qayıtması üçün yenidən danışıqlar aparacaq.

Avropa nəhənglərinin yaxından izlədiyi Sergey Milinkoviç-Saviç uğrunda gedən mübarizədən "Yuventus"un qalib ayrılmasının çətin olduğu söylənilir. "Latsio" 23 yaşlı oyunçunun qarşılığında təxminən 80-100 milyon avro tələb edir. Qeyd edək ki, "Yuventus" həmçinin Adrien Rabyo (PSJ), Lorentso Pelleqrini ("Roma") və Mateo Kovaçiçi ("Real") də yaxından izləyir.

"Yuventus"un yarımmüdafiəçisi Paulo Dibala komandasını dəyişə bilər. Argentinalı futbolçunun karyerasını İspaniya və ya İngiltərədə davam etdirəcəyi gözlənilir.

Paulo Dibala ilə "Atletiko" və "Liverpul" klubları yaxından maraqlanır. İngilislər Dibalaya "Real"a transferi gündəmdə olan Məhəmməd Salahın, ispanlar isə "Barselona"ya keçəcəyi gözlənilən Antuan Qrizmannın əvəzedicisi kimi baxırlar.

**"Real"**ın yarımmüdafiəçisi Mateo Kovaçiç karyerasını yenidən İtaliyada davam etdirə bilər. Xorvatiyalı futbolçu keçmiş komandası "İnter"in maraq dairəsinə düşüb. Çempionlar Liqasına vəsiqə qazanan "Neradzurra"nın yay fasiləsində heyətinə cəlb etmək istədiyi ilk futbolçu məhz Kovaçiçdir. "Real"da əsas heyətə düşə bilməyən 24 yaşlı oyunçu özü də bu keçidin tərəfdarıdır. Mateo Kovaçiç bu mövsüm bütün turnirlərdə ümumilikdə 40 oyun keçirib, 2 məhsuldar ötürmə ilə yadda qalıb.

Almaniyanın "Bayer" klubu heyətini yeni futbolçu ilə gücləndirib. Belə ki, Leverkuzen təmsilçisi "Ayntraxt"ın qapıçısı Lukaş Qradetskini transfer edib. Finlandiyalı qapıçı ilə 2023-cü ilə kimi müqavilə bağlanıb. Finlandiya millisinin üzvü TPS, "Brondbü", "Esbyerq" kimi klublarda çıxış edib.

İngiltərənin "Mançester Yunayted" klubu yetirməsi olan 17 yaşlı futbolçunu əsas komandaya cəlb edib. "Qırmızı şeytanlar" Ceyms Qarner ilə müqavilə imzalayıb. Razılaşmanın müddəti və digər şərtləri barədə hələ ki, məlumat verilməyib. 17 yaşlı futbolçulardan ibarət İngiltərə millisinin kapitanı olan yarımmüdafiəçi 8 yaşından "Mançester Yunayted"dədir.

**"Şaxtyor"**un kapitanı Dario Srna komandadan ayrılacağını bildirib. Xorvatiyalı müdafiəçi ölkəsinin mətbuatına açıqlamasında bu yay Donetsk klubunu tərk edəcəyini deyib. 36 yaşlı futbolçu artıq karyerasının sonuna yaxınlaşdığını və gənclərə yer verilməli olduğunu bildirib. 2003-cü ildən "Şaxtyor"da çıxış edən Xorvatiya millisinin sabiq üzvü 10 dəfə Ukrayna çempionu, 8 dəfə ölkə kuboku və superkubokunu, 1 dəfə isə UEFA kubokunu qazanıb.

**"Arsenal"** yeni baş məşqçisi Unai Emeri ilə imzaladığı müqavilənin şərtləri məlum olub. Fransalı mütəxəssislə üç illik müqavilə imzalanıb. O, yeni müqaviləyə əsasən ilinə 5 milyon funt-sterlinq qazanacaq. Qeyd edək ki, Unai Emeri bu vəzifədə Arsen Vengeri əvəzləyib.

**"Deportivo"** baş məşqçisi Klarens Zeedorfla yollarını ayırıb. 42 yaşlı mütəxəssislə iyunda başa çatacaq müqavilənin müddəti uzadılmayıb. "Deportivo" cari mövsüm La Liqanı 18-ci pillədə başa vururaq birinci diviziona düşüb. Xatırladaq ki, K.Zeedorf fevraldan İspaniya klubunun baş məşqçisi idi.

İspaniyanın "Selta" klubunun yeni baş məşqçisi müəyyənləşib.Viqo təmsilçisinin baş məşqçisi vəzifəsinə Antonio Mohamed təyin edilib. Argentinalı mütəxəssis La Liqa klubu ilə 2 illik müqavilə imzalayıb. 48 yaşlı məşqçinin son iş yeri Meksikanın "Monterrey" klubu olub.



# DÜNYA İDMANI

## “Real” Avropanın ən güclüsü oldu



Kişi basketbolçuların Avroliqa turnirində qalib müəyyənləşib. Serbiyanın Belqrad şəhərində keçirilən final oyununda “Fənərbağça” ilə “Real” komandaları qarşılaşıb.

Görüş 85:80 hesabıyla madridlilərin qələbəsi ilə başa çatıb. Bununla da, “Fənərbağça” ardıcıl ikinci dəfə Avropanın ən güclüsü olmaq arzusuna çata bilməyib.

Qeyd edək ki, üçüncü yer uğrunda oyunda “Jalgris”lə MOİK komandaları üz-üzə gəlib. Görüş litvalıların 79:77 hesablı qələbəsi ilə yekunlaşıb.




## Menni Pakyao yenidən rinqdə

Boks üzrə 8 çəki dərəcəsində keçmiş dünya çempionu Menni Pakyao Malaziyanın Kuala-Lumpur şəhərində keçiriləcək döyüşə hazırlıq prosesi barədə açıqlama verib.

Dünya şöhrətli boksçunun rəqibi WBA versiyası üzrə orta ağır çəkidə mütləq çempion Lukas Matiss olacaq.

“Yarışa iki aydan az vaxt qalıb. İntensiv məşqlərimiz davam edir. Mən bu qarşılaşmaya çox ciddi hazırlaşıram. Bilirəm ki, Matissenin məqsədi məni pensiyaya göndərməkdir. Amma bacarmayacaq”.

## Dünya çempionatında iştirak edəcək məşqçilərin maaşları açıqlanıb



Dünya çempionatında iştirak edən komandaların baş məşqçilərinin məvacibləri açıqlanıb. Onların arasında ən çox qazananı Yoahim Lövdür. Onun illik məvacibi 3,8 milyon avrodur.

II yerdə Braziliya millisinin çalışdırıcısı Tite və Fransa millisinin baş məşqçisi Didye Deşam gəlir. Hər iki mütəxəssisin məvacibi 3,4 milyon avrodur. İspaniya millisinin çalışdırıcısı Xulyen Lopateqinin məvacibi isə 2,9 milyon avroya bərabərdir.

İştirakçılar arasında ən az məvacib Seneqalın baş məşqçisi Aliu Sissedədir. O, ilinə 200 min avro qazanır.

## Messi beşinci dəfə “Qızıl buts”un sahibi oldu

“Barselona” klubunun hücumçusu Lionel Messi 2017-2018-ci illər mövsümünün ən yaxşı bombardiri kimi mükafatlandırılıb.

Argentinalı forvard öz karyerası ərzində beşinci dəfə “Qızıl buts” mükafatını alıb. Mükafatı ona “Barselona” klubunda sonuncu oyununa çıxan Andres İnyesta təqdim edib.

“Qızıl buts” mükafatına beşinci dəfə sahib olmaq üçün L.Messi ötən La Liqa oyunlarında 34 qol vurub. O, həmin mükafatı daha əvvəl 2009-2010-cu (34 qol), 2011-2012-ci (50 qol), 2012-2013-cü (46 qol) və 2016-2017-ci (34 qol) il mövsümlərində qazanıb.




## “Mersedes” Formula-1 yarışlarını tərk edir?

“Mersedes” komandasının nümayəndəsi Niki Lauda Formula-1 yarışlarını tərk edəcəkləri barədə danışıb.

Onun sözlərinə görə, kollektiv 2021-ci il mövsümü və sonrakı dövr ərzində texniki problemləri həll edə bilməsə, bu qaçılmaz olacaq.

“Əlbəttə, hər şey hazırda top komandaların əleyhinə yönəldilib. Texniki problemlərlə bağlı “Ferrari” və “Mersedes” yarışları tərk etsə, bunun nə marağı olacaq ki?!, -deyə Niki Lauda bildirib.

Qeyd edək ki, bundan əvvəl “Ferrari” komandası da Formula-1-dən gedəcəyini demişdi. Britaniyanın “Aston Martin” kollektivi isə fürsəti dəyərləndirərək komandanı təqvimdə əvəzləməyə hazır olduğunu bildirmişdi.

## Lebron Ceyms rekord vurdu



“Klivlend” komandasının məşhur basketbolçusu Lebron Ceyms NBA-nın pley-off matçında dəqiq ötürmələrin sayına görə rekord vurub. 2368 dəfə dəqiq ötürmə edən basketbolçu 44 xalla matçın ən məhsuldar oyunçusu elan edilib.

Beləliklə, Lebron Ceyms 30 il bundan əvvəl digər tanınmış basketbolçu Kərim Abdul-Cabbarın rekordunu yeniləyib. 1989-cu ildə karyerasını başa vuran Abdul-Cabbar 2356 dəfə dəqiq ötürmə edib.

## Serena Uilyams vegeterian oldu

ABŞ tennisçisi Serena Uilyams qızı Olimpiya doğulduqdan sonra arıqlamağa başlayıb.

Məşhur idmançı ana olduqdan sonra həftədə 3-4 dəfə qaçışla məşğul olur. Əvvələr qaçışla məşğul olmadığını deyən Serena Uilyams bundan böyük zövq aldığını deyib: “Mən formada olmaq üçün idman edir, dieta saxlayıram. Sağlamlıqda qida qəbulu da mühüm rol oynayır. Bu baxımdan ət yeməklərindən imtina etmişəm. Bu proses mənə 44 günə başa gəldi. Tezliklə Avropaya səyahət edəcəyəm. Düşünürəm ki, orada yaxşı keyfiyyətli pendir yeyə biləcəyəm”.





## *Şillənin cəzası ağır oldu*

“Los-Anceles Qalaksi”nin hücumçusu Zlatan İbrahimoviç “Monreal İmpekt”la oyunda qırmızı vərəqə alıb. Buna səbəb isveçli futbolçunun rəqibinə şillə vurması olub.

Videotəkrara baxıldıqdan sonra 36 yaşlı futbolçu meydandan qovulub.

## Tennisçiləri “Rolan Qarros” turniri gözləyir

Beynəlxalq Qadın Tennis Assosasiyasının (WTA) Roma turniri başa çatdıqdan sonra tennisçiləri Parisdə keçiriləcək nüfuzlu “Rolan Qarros” turniri gözləyir.

Roma turnirində yarımfinala qədər irəliləyən rusiyalı tennisçi Mariya Şarapova artıq Fransaya yola düşüb.

“Rolan Qarros” turnirinə mayın 27-də start veriləcək.

## Boksçu hakimi vurdu

Kanadanın Toronto şəhərində yarımağır çəki dərəcəsində WBC versiyası üzrə çempion titulu uğrunda Adonis Ctivenson və Badu Cek arasında qarşılaşma keçirilib.

Döyüşün 12-ci raundunda boksçuları bir-birindən ayırmaq istəyən hakim rəqiblərin birindən ağır zərbə alıb. Belə ki, Badu Cek rəqibini vurmaq istərkən təsadüfən ədalət təmsilçisinə dəyib. Azacıq fasilədən sonra döyüş davam etdirilib.

Hakimlərin yekdil qərarı ilə hesab heç-heçə qurtarıb və Stivenson çempion titulunu qoruyub.

## *6 illik həbs cəzası*

İtaliya millisinin və “Yuventus” klubunun keçmiş futbolçusu Vinçenzo Yakintanı 6 illik həbs cəzası gözləyir.

Futbolçu 2015-ci ilin dekabrında qanunsuz odlu silah saxlamaqla yanaşı, Kalabriya mafiyası ilə əlaqəsi olduğuna görə ittiham olunur.

Məlumat üçün bildirək ki, həmin iş üzrə 140 nəfərə ittiham irəli sürülüb və onların arasında Vinçenzo Yakintanın atası da var. Prokuror futbolçunun atasına 19 il həbs cəzası verilməsini tələb edib.

Qeyd edək ki, Vinçenzo Yakinta 2006-cı ildə İtaliya yığmasının heyətində dünya çempionu olub. O, 2012-ci ildə karyerasını başa vurub.



Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54; 564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.